Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

28 FEVRAL 2020-ci il

№ 37 (4168)

Qiymәti 40 qәpik

www.baki-xeber.com

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ERMƏNİLƏRİN TƏZƏ «XOCALI UYDURMASI» - «BİZ XOCALIDA ETMƏSƏYDİK, ONLAR STEPANAKERTDƏ EDƏCƏKDİLƏR...»

■ səh. 8 ■

Ermənistanda yeni "Qarabağ fobiyası" - problemin həlli üzrə ATƏT-ə alternativ Türkiyə-Rusiya tandemi işə düşə bilər
■ səh. 5 ■

Ermənistan ordusunda dağılma - yoluxucu xəstəliklər, ayrıseçkilik, qətl və intiharlar...
■ səh. 9 ■

Qeyri-neft sektoru ixracından Azərbaycana gələn valyuta...
■ səh. 13 ■

Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi
■ səh. 11 ■

Azərbaycanda koronavirusa görə qərargah yaradıldı
■ səh. 2 ■

Dəhşətli virus dünyanı bürüdü - Çindən sonra ən sürətlə yayıldığı iki ölkə - İran və İtaliya, Tehranda virusa yoluxan rəsmilərin sayı 3-ə çatdı, xəstəliyini deyənlərə 1400 dollar mükafat...
■ səh. 12 ■

İbtidai protohay sürüsünün səhra həyatı...
■ səh. 14 ■



■ səh. 6 ■

## Bakı-Tiflis-Qarsla Naxçıvandan Məşhədə - Ermənistan əl uzada bilmədiyi dəmir yolunun əhatəsində...





Əliyevin «qaz strategiyası»nın qələbəsində Trampın fəal dəstəyi bütün mötəbər sənəd və kürsülərdə «qırmızı xətlə» keçir...
■ səh. 3 ■

Ermənistanda eks-prezidentlərə münasibət, Azərbaycanda münasibət - Paşinyan təqib edir, Əliyev hörmət edir...
■ səh. 4 ■

Bütün Ermənistan Rusiya səfirinin «qanını içmək» həddində - Lev Əsgərovun bir məqaləsi...
■ səh. 5 ■

■ səh. 3 ■
Trampın nümayəndəsi Bakıda enerji siyasətinə dəstək verməkdə, "Vaşington Post" 9 fevral seçkilərini pisləməkdə - erməni lobbisinin izləri...



■ səh. 4 ■
Türkiyə - Azərbaycan yeni hərbi-maliyyə sazişi müttəfiqlik tarixində yeni dövr açacaq



■ səh. 7 ■
Sarkisyanla Köçəryanın adı Azərbaycanda Xocalı ilə bağlı cinayət işinə indiyə qədər niyə salınmayıb...



■ səh. 10 ■
Ermənilərin "Tehran-43 nağılı" - Gevorq Vartanyanı mifik kəşfiyyatçı kimi təqdim edirlər, qaldı Njde ilə Vartanyanın İrəvanda qoşa heykəli...



■ səh. 15 ■
Bir alim 15-20 dissertantın elmi rəhbəri ola bilərmi?



# Prezident İlham Əliyev Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul etdi

**Prezident İlham Əliyev fevralın 27-də Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Görüşdə Baronessa Emma Nikolson bu il futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcək oyunlarında iştirak edəcək Uels milli komandası tərəfindən göndərilən xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim edib.

Prezident İlham Əliyev çox maraqlı xatirə hədiyyələrinə görə qonağa təşəkkür edərək deyib:

Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində mütəmadi keçirilən nazirlərin toplantısında bizimlə birlikdə olduğunuza görə təşəkkür edirəm. Sizin şəxsən iştirakınız çox mühümdür. Bu, Böyük Britaniya hökumətinin bu mühüm layihənin icrasına davamlı dəstəyini nümayiş etdirir. Bu, həmçinin ölkələrimiz arasındakı uzunmüddətli tərəfdaşlığı nümayiş etdirir. Bildirmək istərdim ki, ötən görüşümüzdən bəri layihənin gedişatı ilə bağlı mühüm irəliləyiş qeydə alınıb. Biz TANAP-ı Türkiyə-Yunanıstan sərhədinə çatdırdıq. Bu, Cənub Qaz Dəhlizinin icrasında mühüm mərhələ idi. Düşünürəm və ümidvaram ki, növbəti dəfə - gələn ilin fevralında Bakıda görüşəndə biz layihənin tamamlanması barədə məlumat verəcəyik və gələcək addımlarımızı planlaşdıracağıq. Çünki zənnimcə, tikintinin yekunlaşması, əlbəttə ki, mühüm mərhələ olmaqla yanaşı, eyni zamanda, yeni imkanlar açacaq.

Mən, həmçinin, sizin şəxsən verdiyiniz töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Həmçinin şadam ki, neft-qaz sektorunda böyük şirkətlərin bir qismi indi kiçik və orta sahibkarlıq müəssisələri ilə çox mühüm əməkdaşlıq mərhələsinə qədəm qoyur. Bu da bizim hökumətimiz üçün prioritet təşkil edir. Çünki biz Azərbaycan üçün dayanıqlı inkişafı təmin etmək istəyirik və bizim iqtisadiyyatımızın gələcəyi əhəmiyyətli dərəcədə sahibkarlıqdan, kiçik və orta sahibkarlıq müəssisələrinin fəaliyyətindən və islahatların davam etdirilməsindən asılı olacaq. Ona görə də neft-qaz sektoru yalnız bizim islahatlarımızı lazımi vəsaitlə dəstəkləyən sektor olacaq və biz bu vəsaiti insan kapitalına yönəltməyə, həmçinin özəl sektoru dəstəkləməyə davam edəcəyik. Bir daha xoş gəlmisiniz.



Baronessa Emma Nikolson Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində Bakıda keçiriləcək nazirlərin altıncı toplantısının əhəmiyyətini vurğulayıb.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurla inkişaf etdiyi bildirilib və bu istiqamətdə əlaqələrimizin inkişafında BP-nin rolu xüsusi vurğulanıb, əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı Azərbaycanda aparılan islahatların iki ölkə arasında əməkdaşlıq üçün yeni imkanlar yaratdığı bildirilib.

Görüşdə kiçik və orta sahibkarlığın inkişafı, alternativ enerji, innovasiyalar, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb.



## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 16 bıçaq zərbəsi almış Dilarə Bəhmənovaya da kömək əlini uzatdı

**Keçmiş əri tərəfindən 16 bıçaq zərbəsi vurulan Dilarə Bəhmənovanın müalicəsi ilə bağlı məsələlər Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Fondun dəstəyilə həyata keçirilir.**

"Trend"in məlumatına görə, D.Bəhmənovanın anası Elmira Zeynalova bildirib ki, təxminən bir həftə əvvəl Azərbaycan Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov ona zəng edərək qızının səhhəti ilə maraqlanıb:

"Anar müəllim dedi ki, Mehriban xanım qızım Dilarənin başına gələn hadisə barədə məlumatlıdır və onun müalicəsi üçün lazım olan bütün tədbirlərin görülməsini tapşırıb. Ondan sonra hər gün bir neçə yüksək ixtisaslı həkim Dilarənin müalicə aldığı xəstəxanaya gəlib baş çəkir. Həkimlər onu müayinə edib, müalicənin növbəti addımlarını qərarlaşdırırlar.

Dilarə ilk olaraq "Semaşko"da əməliyyat edilmişdi, amma həkimlər yenidən əməliyyat olunmasını tövsiyə etdi. Bütün bunlara görə Mehriban xanıma təşəkkür edirəm. O da anadır, onun da iki qızı var, məni başa düşüb. Biz onlara çox minnətdarıq. Müalicə ilə bağlı xərcləri Heydər Əliyev Fondu öz üzərinə götürüb və bu bizim ailə üçün böyük dəstəkdir".

**Aydın Quliyev İsgəndər Həmidovun vəfatı ilə bağlı üz vermiş kədərə qəlbən şərik olduğunu bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin.**

# Azərbaycanda koronavirusa görə qərargah yaradıldı

**Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət qərargah yaradılıb.**

Nazirlər Kabinetindən verilən məlumata görə, qabaqlayıcı tədbirlərin görülməsi və Azərbaycan Respublikasının bütün ərazilərində monitorinqin aparılması üçün aidiyyəti sahə mütəxəssislərindən ibarət ekspert qrupları təşkil olunub.



Həmçinin, əhalinin məlumatlandırılması və əsassız dezinformasiyaların qarşısının alınması məqsədilə qərargahın +994 12 492 41 61, +994 12 492 75 54, +994 12 505 03 30, + 994 12 505 13 33 nömrəli qaynar xətləri 2020-ci il 28 fevral saat 10:00-dan fəaliyyət göstərəcək.

Məlumat üçün bildiririk ki, Nazirlər Kabinetinin sərəncamı ilə 2020-ci il 30 yanvar tarixində "Azərbaycan Respublikasında yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair Fəaliyyət Planı" təsdiq edilib və nəzərdə tutulmuş tədbirlər həyata keçirilməkdədir. Qeyd olunan xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən daha geniş əhatəli Tədbirlər Planı təsdiq edilib.

Azərbaycanda sanitar-epidemioloji vəziyyət ciddi nəzarətdədir, hazırda əhali arasında yoluxma halları aşkar edilməyib və narahatlıq üçün heç bir əsas yoxdur.

# Koronavirusun Azərbaycan turizminə mənfi təsir edəcəyi deyilir

**Biz düşünürük ki, koronavirusun Azərbaycan turizminə mənfi təsiri olacaq. "Trend"in məlumatına görə, bunu Dövlət Turizm Agentliyinin mətbuat katibi Kənan Quluzadə deyib.**

Onun sözlərinə görə, dünya üzrə səyahətlərin azalması prosesi gedir. İnsanlar artıq hər hansı ölkədə deyil, regionda koronavirus olduqda həmin bölgəyə getməkdən çəkinirlər: "Bu vəziyyət Azərbaycana da təsir edəcək. Durum gündən-günə dəyişir. Artıq Gürcüstanda koronavirus aşkarlanıb. Bundan əvvəl isə İran, İtaliya və digər ölkələrdə də aşkar edilib". K.Quluzadə qeyd edib ki, ölkələr artıq sərhədlərini bağlayırlar. Buna görə də virusun turizmə təsirini rəqəmlərlə demək tezdir:

"Lakin bizim krizislə bağlı ssenarilərimiz var. Biz əsasən marketinq siyasətimizdə korreksiyalar edirik. Bu ilin birinci yarısı üçün Çinlə ciddi layihələrimiz vardı. Onlar indi həyata keçirilmədiyi üçün səylərimizi digər bazarlara yönəldəcəyik. Bizim 2018-2023-cü illər üzrə konsepsiyamız ondan ibarət idi ki, bazarların coğrafiyasını genişləndirək, hər hansı bazarda problem yarandıqda digərləri ilə işləyək. Düşünürük ki, koronavirusun turizmə mənfi təsiri olacaq. Amma necə olacağını hadisələrin gedişatından və verilən qərarlardan görəcəyik".

Agentlik rəsmisinin sözlərinə görə, turizm şirkətlərinə koronavirus yayılan ölkələrə gedənləri, həm də ordan gələnləri təlimatlandırmaq tapşırılıb.

# Əliyevin "qaz strategiyası"nın qələbəsində Trampın fəal dəstəyi bütün mötəbər sənəd və kürsülərdə "qırmızı xətlə" keçir...

**Azərbaycan Prezidenti İlham Əliyev fevralın 26-da ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən onlara "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında iştiraklarına görə təşəkkür edib:**

"Bu, həqiqətən də yaxşı ənənəyə çevrilib. Biz hər il nəticələri nəzərdən keçirir və gələcək işləri planlaşdırırıq. Biz artıq yekun mərhələyə yaxınlaşan "Cənub Qaz Dəhlizi" layihəsinin ildən-ilə çox mühüm icrasını müşahidə edirik. Ümidvaram ki, bu ilin sonunadək bütün işlər tam yekunlaşacaq. Bildiyiniz kimi, biz layihənin açılışını mərhələli şəkildə etmişik. 2018-ci ildə Bakıda təntənəli mərasim təşkil etdik və "Cənub Qaz Dəhlizi"nin istismara verildiyini rəsmi olaraq elan etdik. Sonra, əlbəttə ki, TANAP-la bağlı çox mühüm tədbir oldu. Ötən ilin noyabrında TANAP artıq Avropa sərhədinə çatdı. Bu bizə "Şahdəniz" və digər qaz yataqlarından daha çox təbii qaz ixrac etməyə imkan verəcək. Çünki bizim planımız fəaliyyətimizi genişləndirmək və hələ ki, kəşfiyyat mərhələsində və ya yekun hazırlıq mərhələsində olan digər yataqlardan hasilat səviyyəsini artırmaqdır.

Beləliklə, bütün işlər qrafikə uyğun gedir. Mən bu mühüm layihənin icrasında göstərdiyi davamlı dəstəyə görə ABŞ hökumətinə minnətdarlığımı bildirmək istərdim. Bilirəm ki, Prezident Tramp şəxsən prosesdə iştirak edir. Onun fəal təmasları və iştirakı bizim əvvəllər üzləşdiyimiz müəyyən çətinliklərin öhdəsindən gəlməkdə çox yardımçı oldu. Hazırda biz heç bir başqa manea görmürük. Qarşıdakı yol çox aydındır. Əminəm ki, səmərəli əməkdaşlığımız gələcəkdə davam edəcək, çünki ABŞ hökuməti bizim istər neft və qaz kəmərləri, istərsə də enerji potensialımızın inkişafı ilə bağlı layihələrimizi hər zaman çox dəstəkləyib".

Göründüyü kimi, ölkə başçısı ABŞ Prezidentinə ölkəmizin təşəbbüskarlığı ilə həyata keçirilən meqa enerji layihələrinə verdiyi şəxsi dəstəyə görə minnətdarlığını ifadə edib. Bu gün beynəlxalq aləmdə öz yeri və rolu olan Azərbaycan dünyanın böyük dövlətləri ilə qarşılıqlı faydalı münasibətlər qurub. Təbii ki, ölkəmizin artan nüfuzu bu münasibətlərin möhkəmlənməsində və daha da genişlənməsində əhəmiyyətli rol oynayır. Artıq dünya dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycanın milli maraqlarına hörmətlə yanaşır, onunla hesablaşırlar. Bu sırada ABŞ xüsusi yer tutur. Bu gün Cənubi Qafqaz regionunda Azərbaycan ABŞ-ın əsas müttəfiqidir. Ölkələrimiz arasındakı əlaqələr strateji tərəfdaşlıq səviyyəsindədir. ABŞ ölkəmizin həyata keçirdiyi qlobal enerji layihələrinə hər zaman dəstək verib və bu siyasətini davam etdirir. ABŞ Prezidenti Donald Trampın Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktublarda da bu məqama toxunulub. "Dövlətlərimiz arasında bir çox ortaq maraqlar üzərində qurulmuş güclü tərəfdaşlıq mövcuddur. Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi töhfələri və "Cənub Qaz Dəhlizi" təşəbbüsünü irəli sürməklə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsində Sizin liderliyinizi dəyərləndirirəm", - deyən ABŞ Prezidenti tərəfdaşlığın gələcək illərdə də inkişaf etməsini səmimiyyətlə arzuladığını vurğulayıb. Kifayət qədər səmimi fikirlərlə zəngin məktubda ABŞ-ın Azərbaycana nə qədər böyük önəm verdiyi açıq şəkildə görünür. Trampın başqa bir məktubunda isə bunlar deyilir: "Azərbaycan özünün tarixində bugünkü qədər firavan və qlobal iqtisadiyyata bağlı olmamışdır. "Cənub Qaz Dəhlizi" daxil olmaqla, Azərbaycanda hasil olunan neft və qaz dünya enerji bazarlarında sabitliyi artırmaqda davam edir". Məktubda yer alan bu fikirlərdə ölkəmizin dünya enerji təhlükəsizliyinə, sülh və sabitliyə verdiyi töhfə xüsusi olaraq vurğulanır. Təbii ki, ABŞ kimi güclü dövlət də bilir ki, Azərbaycanın regiondakı inkişafda, sülh və sabitlikdə böyük payı var. Bu baxımdan da İlham Əliyevin Trampa etdiyi minnətdarlığın dərin köklərdən qaynaqlandığını görürük.




*Məhəmmədəli* **QƏRİBLİ**

# Trampın nümayəndəsi Bakıda enerji siyasətinə dəstək verməkdə, "Vaşinqton Post" 9 fevral seçkilərini pisləməkdə - erməni lobbisinin izləri...

**Xəbər verildiyi kimi, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin toplantısında iştirak etmək üçün ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri Kurt Donnellinin başçılıq etdiyi nümayəndə heyəti Bakıda səfərdədir.**



## *Yadigar Məmmədli: "Erməni lobbisinin maraqlarından çıxış edən dairələr istəmirlər ki, ABŞ-Azərbaycan münasibətləri inkişaf etsin"*

Prezident İlham Əliyev nümayəndə heyətini qəbul edib. Görüş zamanı "Cənub Qaz Dəhlizi" ətrafında və ABŞ-ın bu layihəyə dəstək verməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

ABŞ rəsmisi Kurt Donnelli ilk dəfə Bakıya 2004-cü ildə gəldiyini, ötən dövr ərzində paytaxtımızda həyata keçirilən böyük inkişaf proseslərinin şahidi olduğunu vurğulayıb. "Cənub Qaz Dəhlizi"nin əhəmiyyətinə toxunan K.Donnelli bu layihənin tamamlanma mərhələsinə daxil olması münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

Çox qəribədir ki, bu cür yüksək səviyyəli görüşün keçirilməsi ilə eyni vaxtda ABŞ-ın "Vaşington Post" qəzetində "Azərbaycanda səyahət qadağası və saxta seçki" adlı redaksiya məqaləsi dərc edilib. Məqalədə Azərbaycana yönəlik əsassız tənqidi fikirlər yer alıb. İddia olunub ki, guya Azərbaycanda 9 fevral seçkiləri saxtalaşdırılıb, hamıya bərabər şərait yaradılmayıb, avropalı siyasətçilər satın alınır, media mənsubları təzyiqlə üzləşir və s.

Göründüyü kimi, Trampın nümayəndəsinin Bakıda enerji siyasətinə dəstək verməsilə eyni vaxtda belə xoşagəlməz yazının tirajlanması təsadüfi deyil. Bu, erməni lobbisinin Azərbaycana yönəlik məkrli siyasətindən irəli gəlir. Sözügedən dairələr Azərbaycan-ABŞ münasibətlərinə xələl gətirməkdən ötrü belə təxribatlara əl atırlar.

Məsələyə münasibət bildirən media eksperti Yadigar Məmmədlinin sözlərinə görə, Azərbaycana yönəlik tənqidi məzmunlu yazının erməni lobbisinin sifarişi əsasında verilməsi istisna deyil: "Burada erməni izinin olması açıq-aşkar özünü göstərir. Azərbaycanın əleyhinə olan istənilən məsələdə birbaşa və ya xud dolayı da olsa erməni lobbisinin əli var. Onların bunda hansısa formada iştirakı birmənalıdır.

## *"Onların bunda hansısa formada iştirakı birmənalıdır"*

Çünki bütün bunların eyni günə təsadüf etməsi bunun məqsədli şəkildə həyata keçirilməsindən xəbər verir. Erməni lobbisinin maraqlarından çıxış edən dairələr istəmirlər ki, ABŞ-Azərbaycan münasibətləri inkişaf etsin. Bu münasibətlərin inkişafı keyfiyyətcə yeni mərhələyə keçsin. Belə vəziyyətin yaranması həm də Birləşmiş Ştatların Azərbaycanla bağlı ikili standartlarından irəli gəlir. Enerji sahəsində Azərbaycanla bağlı əməkdaşlığa ABŞ xüsusi önəm verir. Ancaq Qarabağ münaqişəsinin həlli və digər məsələlərlə bağlı ABŞ yetərincə fəallıq göstərmir. Baxın, Trampın nümayəndəsi ölkə başçısı ilə yüksək səviyyəli görüş keçirir, eyni vaxtda "Vaşington Post" qəzetində belə qərəzli yazı dərc olunur. Deməyim odur ki, sözügedən məqalə Azərbaycanı gözdən salmaq məqsədi güdür. Ancaq ölkə başçısının Trampın nümayəndəsi ilə görüşməsi isə reallığı göstərir. Reallıq ondan ibarətdir ki, Azərbaycanla ABŞ və digər Avropa ölkələri arasında yüksək əməkdaşlıq var. Bunu da bəzi dairələr həzm edə bilmirlər".

***Vidadi ORDAHALLI***

# Ermənistanda eks-prezidentlərə münasibət, Azərbaycanda münasibət - Paşinyan təqib edir, Əliyev hörmət edir...

**Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva eks-prezident Ayaz Mütəllibovla "Ana harayı" abidəsini ziyarət edərkən salamlaşıblar. Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar Xətai rayonunda faciə qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər.**

Bu zaman mərasimdə iştirak edən Ayaz Mütəllibov Azərbaycan Prezidenti və Birinci vitse-prezidentlə görüşüb.

Xatırladaq ki, A.Mütəllibov Xocalı soyqırımından bir neçə gün sonra vəzifəsindən istefa verib.

Bu mənzərə bizi bir paralel aparmağa vadar etdi. Azərbaycanda və Ermənistanda eks-prezidentlərə olan münasibət necədir?

Azərbaycanın eks-prezidentlərindən olan Əbülfəz Elçibəyin ailəsi onlara verilmiş yüksək statusdan bəhrələnə bilir. Ötən il Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın tapırığı əsasında Əbülfəz Elçibəyin Bakı şəhərində olan mənzili əsaslı şəkildə təmir olundu. Azərbaycanın digər eks-prezidenti Ayaz Mütəllibovla da bağlı bir sıra humanist addımlar atılıb. Vaxtilə onunla bağlı qaldırılan cinayət işi ləğv olunub, onun Azərbaycanda yaşamasına şərait yaradılıb. Ayaz Mütəllibov da hazırda eks-prezident statusuna sahibdir. Bəs Ermənistanda vəziyyət necədir?

Hazırda Ermənistanda üç eks-prezident var. Onlardan biri Levon Ter Petrosyandır. Onun vəziyyəti nisbətən yaxşıdır. Bu heç də eks-prezidentin statusundan qaynaqlanmır. Paşinyanla Levon Ter Petrosyan arasında olan şəxsi dostluq münasibətlərinə söykənən amildir. Çünki biz analoji isti yanaşmanı digər iki eks-prezidentə münasibətdə görmürük. Həmin eks-prezidentlərdən biri sayılan Robert Köçəryanı Paşinyan hakimiyyətə gələn kimi həbsə saldırdı. Hətta bu məsələdə, demək olar ki, hüququ tapdaladı. Köçəryanı məhkəmə həbsdən azad etsə də, onun zor gücünə yenidən həbsxanaya göndərilməsinə nail oldu. Rusiya Prezidenti Vladimir Putin iki dəfə Köçəryana həbsxanaya məktub yazıb və onu müəyyən əlamətdar günlər münasibətilə təbrik edib. Həmin məktubların mətnləri medaida yayılıb və aydın hiss olunub ki,



Putin də Köçəryanın həbsdə qalmasını istəmir. Hətta bu cür beynəlxalq diqqətə baxmayaraq, Paşinyan eks-prezidenti dörd divar arasında saxlayır. Digər eks-prezident Serj Sarkisyana qarşı da cinayət işi qaldırılıb. Onun bütün yaxın qohumları, demək olar ki, həbsdədir. Paşinyan hakimiyyəti Serj Sarkisyanı da daim həbs oluna biləcəyi şantajı altında saxlayır.

Bu müqayisə bir daha göstərir ki, Ermənistan dövlətçilik ənənələrinə sayğı, siyasi opponentlərə ehtiram göstərmək baxımından da Azərbaycandan qat-qat geri qalır. Qeyd edək ki, İlham Əliyevin Ayaz Mütəllibova xüsusilə də Xocalı faciəsi ilə bağlı anım tədbirində göstərdiyi diqqət həm də Ermənistanın mövcud hakimiyyətinin yalanını bir daha ifşa etmiş oldu. Çünki Paşinyan Münhendə keçirilən debatda demişdi ki, guya Ayaz Mütəllibov bu qətliamın müxalifət tərəfindən törədildiyini deyib. Düzdür, Ayaz Mütəllibov onun iddiasını rəsmən təkzib etdi. Ancaq Azərbaycanın mövcud və eks-prezidentlərinin məhz Xocalı abidəsi önündə salamlaşması Paşinyanın növbəti fiaskosu sayıla bilər.

***Məhəmmədəli QƏRİBLİ***

# Türkiyə - Azərbaycan yeni hərbi-maliyyə sazişi müttəfiqlik tarixində yeni dövr açacaq

**Məlum olduğu kimi, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının Bakıda keçirilmiş VIII iclasının yekununda iki ölkə arasında müdafiə və təhlükəsizlik sektorunda əməkdaşlığa dair bir neçə sənəd imzalanıb.**



İclas başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə sənədlərinin imzalanması mərasimi olub. Azərbaycanın Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında hərbi-maliyyə əməkdaşlığı haqqında Saziş"i və "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında maliyyə yardımının tətbiqi haqqında Protokol"u imzalayıblar.

İclasın yekununda dair mətbuat qarşısında çıxış edən Prezident İlham Əliyev görüşdə müdafiə sahəsində birgə gələcək işbirliyi haqqında fikir mübadiləsinin aparıldığını qeyd edib: "Təkcə keçən il 13 birgə hərbi təlim keçirilmişdir. Bu il isə hərbi təlimlərin sayı daha da çox olacaq. Azərbaycan Türkiyədən müasir silahların alınmasını davam etdirəcək və bu gün biz birgə istehsalın təşkili haqqında da danışmışıq".

## *İbrahim Rüstəmli: "Yeni saziş hərbi-siyasi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir"*

Görünən odur ki, Türkiyə ilə imzalanan yeni hərbi-maliyyə sazişi müttəfiqlik tarixində yeni dövr açacaq. Bunun sayəsində qardaş ölkədən yeni silahlar alınacaq. Digər tərəfdən, ordumuzun döyüş imkanları bir qədər də artırılacaq.

Maraqlıdır, bəs ekspertlər iki ölkə arasında imzalanan yeni hərbi-maliyyə sazişinin əhəmiyyətini necə dəyərləndirirlər?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin fikrincə, yeni hərbi-maliyyə əməkdaşlığı sazişi hərbi-

*"Bütün bunlar Azərbaycanın hərbi nöqteyi-nəzərdən daha da güclənməsinə xidmət edəcək"*

siyasi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir: "Bəlli olduğu kimi, Türkiyə Azərbaycanın ən yaxın və böyük müttəfiqlərindən biri sayılır. İstər beynəlxalq aləmdəki hərbi gücünə, istərsə də regiondakı siyasi mövqeyinə görə regionda ən böyük güc mərkəzlərindən biri kimi tanınır. Çünki Türkiyə çox böyük və qüdrətli orduya malikdir. Azərbaycanla Türkiyə neçə ildir hərbi əlaqələrə malikdirlər. Bu əlaqələrin yeni müstəvidə inkişafı ilə bağlı imzalanan saziş hərbi-siyasi nöqteyi-nəzərdən mühüm əhəmiyyət kəsb edir. Bu, iki ölkənin müttəfiqlik tarixində yeni bir mərhələ açacaq. Zatən, Azərbaycan Türkiyədən hər zaman bir qardaş dəstəyi görüb. Türkiyə Azərbaycana təmənnasız kömək edən yeganə dövlətdir. Bu sırada onun mövqeyini paylaşan ikinci bir dövlət yoxdur. Bu mənada, Azərbaycanın indiki dövrdə Türkiyə ilə hərbi-maliyyə əməkdaşlığını genişləndirməsi iki ölkə əlaqələrinə yeni rəng qatacaq. Bu əlaqələrin daha yeni bir müstəvidə inkişafına stimul verəcək. Bütün bunlar Azərbaycanın hərbi nöqteyi-nəzərdən daha da güclənməsinə xidmət edəcək. Türkiyədən yeni müasir silahlar alınacaq. O üzdən, iki ölkə arasında hərbi əlaqələrin daim genişlənməsi vacibdir. Çünki Azərbaycan işğaldan əziyyət çəkir. Torpaqlarının müəyyən faizi erməni işğalı altındadır. Ona görə də biz hərbi gücümüzü daha da artırmalıyıq. Bu cür müqavilələr hər iki ölkənin mənafeyinə xidmət edir".

***Vidadi ORDAHALLI***

**Son** günlər erməni mediasında Rusiya və Türkiyənin Cənubi Qafqazda fəallağını artıracağı ilə bağlı bir narahatlıq var. Bəzi erməni ekspertləri hesab edirlər ki, bütün bunlar Qarabağ münaqişəsinin tənzimlənməsində Ermənistanın xeyrinə olmayan vəziyyət yarada bilər.

# Ermənistanda yeni "Qarabağ fobiyası" - problemin həlli üzrə ATƏT-ə alternativ Türkiyə-Rusiya tandemi işə düşə bilər

## *Elşən Manafov: "Erməni tərəfi Rusiya-Türkiyə yaxınlaşmasından narahat olduğu üçün belə iddialarla çıxış edir*



Ermənistanın Təhlükəsizlik və Beynəlxalq Münasibətlər İnstitutunun eksperti Ayk Gabrielyan iddia edir ki, Cənubi Qafqazda Rusiya ilə Türkiyə arasında rəqabət tezliklə qızışa bilər: "Mənə elə gəlir ki, Türkiyə Suriyadakı əksər hədəflərinə çatdığına görə daha çox Cənubi Qafqaza diqqət ayıracaq. Türkiyə bu çərçivədə Rusiya ilə dialoq aparmaq lazım olduğunu başa düşür və Rusiyanı öz planlarına cəlb etmək üçün metodik tədbirlər görür. Mən Ərdoğan və Çavuşoğlunun "Moskva istəsə, Qarabağ münaqişəsini həll edə bilər" fikirlərini nəzərdə tuturam. Qeyd edim ki, Türkiyə tərəfinin bu cür açıqlamaları Azərbaycanın özündə səslənən "Qarabağ Azərbaycandır" fikirlərindən daha çox təhlükəlidir".

Erməni ekspert iddia edir ki, Rusiya ilə Türkiyə ATƏT-in Minsk Qrupuna alternativ olaraq Qarabağ münaqişəsinin həllinə dair variant ortaya qoya bilərlər: "Suriyadakı kimi, bölgədəki problemlərin yalnız bölgə ölkələri tərəfindən həll edilməli olduğunu göstərmək üçün Minsk Qrupuna qarşı çıxmaqla Cənubi Qafqazda Rusiya-Türkiyə "Astana" formatının yaradılması ehtimalına hazır olmalıyıq".

Maraqlıdır, ekspertlər erməni tərəfinin bu iddialarını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən politoloq Elşən Manafovun sözlərinə görə, ermən tərəfi Rusiya-Türkiyə yaxınlaşmasından narahat olduğu üçün belə iddialarla çıxış edir: "Suriya probleminin həlli ilə bağlı razılıqların əldə edilməsindən sonra Ermənistan siyasi elitasında bir narahatlıq var. Belə fikirlər səslənir ki, iki ölkənin əməkdaşlığı fonunda Türkiyə Rusiyadan xahiş edəcəyi təqdirdə Kreml Ermənistana təzyiqləri artıracaq. Bu cür fikirlər təsadüfi deyil. Çünki "Astana" formatı Rusiya, İran və Türkiyənin timsalında yeni bir güc mərkəzinin yaranmasına səbəb oldu. Adıçəkilən dövlətlərin də hər biri Azərbaycanla əməkdaşlığa xüsusi önəm verir. Sözügedən dövlət başçılarının Azərbaycana səfərləri olub. Azərbaycan da daxil olmaqla, bu dövlətlər arasında təhlükəsizliklə bağlı məsələlər müzakirə olunub və müəyyən razılıqlar əldə olunub. Ümumiyyətlə, Ermənistanda zaman-zaman Rusiya ilə Türkiyə arasında əldə edilə biləcək hər hansı bir razılığın perspektivdə Qarabağ münaqişəsinin həllinə təsir edə biləcəyi ilə bağlı bir narahatlıq var. Hesab edirlər ki, bu, münaqişənin məhz Azərbaycanın xeyrinə həll olunacağına gətirib çıxaracaq. Erməni ekspert A.Gabrielyanın məlum narahatlığı əsasən bundan qaynaqlanır. Onu da qeyd edim ki, 2015-ci ildə rus təyyarəsinin vurulması ilə əlaqədar Rusiya-Türkiyə münasibətləri gərginləşdi. İki ölkə arasında gərginliyin aradan qaldırılmasında Prezident İlham Əliyevin müstəsna xidmətləri oldu. O mənada, Rusiya-Türkiyə əməkdaşlığı perspektivdə ATƏT-in Minsk Qrupuna bənzər başqa bir təsisatın meydana gəlməsinə gətirib çıxara bilər. Ancaq bunun yaxın perspektivdə baş verəcəyini demək çətindir".

*"...Minsk Qrupuna bənzər başqa bir təsisatın meydana gəlməsinə..."*

***Vidadi ORDAHALLI***

---

**Bu** günlərdə Rusiyanın aparıcı nəşrlərindən birində - "Nezavisimaya qazeta"da Sovet İttifaqının və Azərbaycanın tanınmış jurnalisti Lev Mobutoviç Əsgərovun "Sumqayıt faciəsi" adlı trilogiyası dərc olunub.

# Bütün Ermənistan Rusiya səfirinin "qanını içmək" həddində - Lev Əsgərovun bir məqaləsi...

## *Əli Orucov: "Gerçəklər üzə çıxdığı üçün ermənilər bu qədər narahatdır və istəmirlər ki, onların faşist siması ifşa olunsun"*



Hadisələrin haradan qaynaqlanması və necə baş verməsi barədə bəhs edilən məqalə SSRİ DTK-nın sənədləri əsasında hazırlanıb. "Sumqayıt faciəsi. Necə başlanıb və nə baş verib" sərlövhəli yazıda müəllif arxiv materiallarına əsaslanır. Məqalədə Sumqayıt olayının baş verdiyi ərəfə, bu faciəyə gətirən hadisələr, səbəbkarlar, təqsirkarlar barədə ətraflı söhbət açılır.

1988-ci ilin 27-29 fevralında baş vermiş Sumqayıt hadisələrinin ildönümü ərəfəsində "Nezavisimaya qazeta"da əsl həqiqətlərin işıqlandırılması həmin hadisələrin əsl tərəfini və günahkarlarını ifşa edir.

Ancaq bütün bunlar erməniləri bərk narahat edir. Erməni mediası bununla bağlı Rusiyanı kəskin tənqid edib. Qeyd olunur ki, Rusiyanın Ermənistandakı səfiri Rusiya kanallarının erməni milli multipleksindən çıxarılması təklifindən narahatlığını bildirsə də, Rusiya KİV-də Moskva-Bakı bazasında azğınlaşmış antierməni təbliğatı davam edir. Bu fikirlər Ermənistanın Iragir.am saytında yer alıb. Nəşr bildirir ki, bu, Rusiya rəhbərliyinin antifaşist ritorikası fonunda özünü qabarıq göstərir: "Bu günlərdə Rusiyanın "Nezavisimaya qazeta" nəşri Azərbaycan müəllifinin Sumqayıtda ermənilərin törətdiyi qırğınlar haqqında məqaləsini dərc edib. Bu cür yazılar Ermənistanın "strateji qardaşı" sayılan dövlətin mətbuatında dərc olunur. Rusiya Cinayət Məcəlləsinin 282-ci maddəsinə görə, "nifrət və ya ədavəti qızışdıran, həmçinin, insanın və ya bir qrup şəxsin ləyaqətinə toxunan" şəxslər fəaliyyətləri ilə məşğulolma hüququndan məhrum edilməli və ya üç ildən altı ilədək müddətə həbs cəzası almalıdırlar.

Bir il əvvəl bir neçə erməni saytı Rusiya vətəndaşı Ruben Tatulyan - Robsonun iddiası əsasında Rusiya ərazisində bloklanıb. Tezliklə kilidi silinib, lakin 2019-cu ilin dekabr ayında, xüsusilə Iragir.am saytı yenə də eyni bəhanə ilə Rusiya ərazisində bloklanıb.

Ruben Tatulyan Rusiya mətbuatında irqçi xarakterli antierməni məqaləsi ilə bağlı məhkəməyə müraciət edəcəkmi? Halbuki, bu sualı Rusiya təbliğatının avanqardı - vəzifələrinə görə mühakimə olunan Marqarita Simonyana vermək lazımdır. Bu sualı Ermənistandan çox narahat olan görkəmli rus-erməni Andranik Migranyana yönəltmək olar. O, Ermənistanın sabiq prezidentləri üzərində məhkəmə prosesləri ilə əlaqədar "erməni olduğuna görə utandığını" demişdi. Ancaq onların özləri də antierməni təbliğatından utanmalıdırlar".

Maraqlıdır, ermənilər niyə sözügedən məqalədən bu qədər narahat olub şivən qaldırırlar?

Məsələyə münasibət bildirən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, Sumqayıt hadisələri ilə bağlı əsl həqiqətlərin Rusiyanın aparıcı nəşrində işıq üzü görməsi ermənilərin yalanını ortaya qoyur: "Ona görə bu dərəcədə narahatdırlar. Şəxsən mən özüm "Nezavisimaya qazeta"da dərc olunan həmin yazını oxumuşam. Çox obyektiv yazıdır. Ermənilər utanmadan Rusiyanı ittiham edirlər. Hansı ki, bu günə qədər Rusiya KİV-də kifayət qədər ermənilərin maraqlarından çıxış edən yazılar dərc olunub. Rus mətbuatında çalışan erməni əsilli yazarlar Azərbaycana yönəlik ağla gəlməyən böhtanlar səsləndiriblər. Son vaxtlar Avropa ölkələrində və o cümlədən, Rusiyada ermənilərin iç üzünün ortaya qoyulması qarşı tərəfi narahat edir. Çünki bunun sayəsində ermənilərin əsl siması ortaya çıxır. Gerçəklər üzə çıxdığı üçün ermənilər bu qədər narahatdır və istəmirlər ki, onların faşist siması ifşa olunsun. Bu baxımdan sözügedən məqalə çox ciddi rezonansa səbəb oldu. Bütün hallarda, bu səpkili daha çox yazının tanınmış Rusiya nəşrlərində dərc olunmasına çalışmalıyıq. Çünki Rusiya ictimaiyyətində ermənilərin əsl simasını bilməyən insanlar var. Onları bu minvalla məlumatlandırmaq lazımdır".

*"Bu səpkili daha çox yazının tanınmış Rusiya nəşrlərində dərc olunmasına çalışmalıyıq"*

***Vidadi ORDAHALLI***

**Azərbaycan və Türkiyə arasında dinamik inkişaf edən münasibətlər, bu istiqamətdə atılan yeni addımlar Ermənistanda daim böyük narahatlıqla izlənilir. Bu narahatlıq Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə son səfərindən sonra daha da artıb.**

# Bakı-Tiflis-Qarsla Naxçıvandan Məşhədə - Ermənistan əl uzada bilmədiyi dəmir yolunun əhatəsində...

Xüsusən də Bakı-Tiflis-Qars dəmir yolu xəttinin perspektivdə Naxçıvana qədər uzadılması məsələsi düşmən ölkədə ciddi təşvişlə qarşılanır. Ermənistanın "İrates" qəzeti yazır ki, Türkiyə bununla Naxçıvanda iqtisadi cəhətdən də möhkəmlənmək istəyir:"Türkiyənin Naxçıvanda bu şəkildə möhkəmlənməsi Ermənistan üçün təhdiddir. Amma bu təhdidin aradan qaldırılması İrəvanın imkanları xaricindədir. Türkiyə bizə təzyiqləri müxtəlif istiqamətlərdən artırmaqda davam edir".

Qeyd edək ki, Naxçıvanın iqtisadi cəhətdən güclənməsində Türkiyənin böyük rolu var. Buradan Türkiyəyə ixrac və idxal muxtar respublikanın iqtisadi həyatında vacib rol oynayır.

Təbii ki, belə vəziyyətdə Bakı-Tiflis-Qars dəmir yolu xəttinin Naxçıvana qədər uzadılması muxtar respublikanın iqtisadi inkişafına yeni mühüm təkan verəcək. Bu mövzuya prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış zamanı da xüsusi toxunublar. İlham Əliyev məsələ ilə bağlı qeyd edib: "Nəqliyyat sahəsində böyük nailiyyətlərimiz var. Birlikdə həyata keçirdiyimiz Bakı-Tiflis-Qars dəmir yolu uğurla fəaliyyət göstərir. Bu yolun gələcək fəaliyyəti haqqında danışıldı və bir önəmli sənəd də imzalandı, o da Qars-Naxçıvan dəmir yolunun tikintisinə dair Anlaşma Memorandumudur. Bu xüsusi əhəmiyyət daşıyan məsələdir. Çünki Ermənistanın işğalçı siyasətinə görə Naxçıvan uzun illərdir, demək olar ki, blokada, yəni mühasirə şəraitində yaşayır. Naxçıvanda istehsal olunan məhsulların xarici bazarlara çıxarılması böyük problemdir. Qars-İğdır-Naxçıvan dəmir yolunun tikintisi bu problemi aradan qaldıracaq və beləliklə, Azərbaycanla Türkiyə arasında yeganə quru sərhədi olan Naxçıvan Muxtar Respublikasının inkişafı, rifah halı daha da yaxşılaşacaqdır". Rəcəb Tayyib Ərdoğan da bunu önəmli hal sayır: "14 sənəd - memorandum, saziş və protokol imzaladıq... Amma bundan başqa siyasi sahədə xüsusilə önəmli bir addım Naxçıvan və Türkiyə arasındakı dəmir yolu məsələsidir. Bu, Naxçıvanın inkişafı baxımından çox önəmlidir".

Əslində, Naxçıvan Bakı-Tiflis-Qars dəmir yolu ilə daşınan yüklərin qəbul edilməsinə hələ 2018-ci ildən başlayıb. Belə ki, həmin ilin avqustunda Naxçıvana sözügedən dəmir yolu xəttilə yüklərin daşınmasına başlanıb. Bakı-Tiflis-Qarsla daşınan yüklər Türkiyənin Qars şəhərində boşaldılaraq, yük maşınları vasitəsilə Sədərək sərhəd-keçid məntəqəsindən keçməklə Naxçıvana aparılır. Bakı-Tiflis-Qars xətti vasitəsilə daşımaların təşkili Naxçıvanın daha bir alternativ nəqliyyat dəhlizinə çıxışı deməkdir. Bu da muxtar respublika üçün mühüm strateji əhəmiyyəti olan hadisədir. Amma yükdaşımalarn daha da asanlaşdırılması üçün Qarsdan Naxçıvana ayrıca dəmir yolu xəttinin çəkilməsi nəzərdə tutulur. Bu məqsədlə Qars-İqdır-Aralıq-Dilucu dəmiryol xətti tikintisinin Naxçıvan istiqamətində davam etdirilməsi mühüm əhəmiyyət kəsb edir. Sözügedən xətt Bakı-Tiflis-Qars yolu ilə birləşdiriləndən sonra Şərqdən Qərbə tərəf bütün Türkiyə ərazisindən keçən Qars-Kapıkule xəttinə, daha sonra Avropaya doğru uzanacaq. Bu da muxtar respublikanın nəqliyyat müstəqilliyinin təmin edilməsinə və Naxçıvanda istehsal olunan məhsulların xarici ölkələrə rahat daşınmasına səbəb olacaq. Lakin Bakı-Tiflis-Qarsın Azərbaycan üçün əhəmiyyəti təkcə yuxarıda qeyd olunanlarla məhdudlaşmır. Məsələ burasındadır ki, bu dəmir yolunun muxtar respublikaya kimi uzadılmasından sonra gələcəkdə onun Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi də nəzərdə tutulur. Xatırladaq ki, 2017-ci il dekabrında Naxçıvan-Təbriz-Tehran-Məşhəd qatarı fəaliyyətə başlayıb. Elə bundan sonra Bakı-Tiflis-Qarsın Naxçıvan-Culfa-Təbriz dəmir yolu xəttinə birləşdirilməsi aktuallaşıb. Beləliklə, Kapıkule-Edirne-İstanbul-Eskişehir-Ankara-Yozqat-Sivas-Erzincan-Qars dəmir yolu İqdır əyalətindən keçməklə Azərbaycan və İran dəmir yollarına birləşdiriləcək. Həmin xətt də məhz Naxçıvandan keçəcək. Bununla da Bakı-Tiflis-Qars Naxçıvanın daha bir alternativ nəqliyyat dəhlizinə çıxışı demək olacaq və bu da muxtar respublika üçün mühüm strateji əhəmiyyətli olan hadisədir. İndilikdə isə Avrasiyanın nəqliyyat xəritəsini yeniləşdirən Bakı-Tiflis-Qars regionda Azərbaycanın çox əhəmiyyətli təsir amili olmaqla, onu tranzit daşımalar mərkəzinə çevirir. Perspektivdə bundan Naxçıvan da əhəmiyyətli dərəcədə yararlana biləcək. Elə bu fonda erməni tərəfinin Bakı-Tiflis-Qarsdan hələ də ciddi narahatlıq keçirməsi başadüşüləndir.



**Çünki Azərbaycanda qurulan tranzit infrastruktur, ölkənin nəqliyyat imkanlarının artıq beynəlxalq miqyasda kifayət qədər diqqət cəlb etməsi Ermənistanı sürətlə arxa plana atır. İran, Rusiya kimi ölkələrin də Bakı-Tiflis-Qarsa marağının artması isə Ermənistanın əndişəsini daha da artırır. Çünki bu ölkələr İrəvanla nəqliyyat sahəsində daha əvvəl nəzərdə tutulan bütün layihələrdən imtina edir.**

***Nahid SALAYEV***

**Xocalı soyqırımının törədilməsində birbaşa iştirakları olan şəxslərin heç biri cinayət məsuliyyətinə cəlb edilməyib. Söhbət xüsusilə də soyqırım iştirakçıları olan Ermənistana prezidentlik etmiş Robert Köçəryan, Serj Sarkisyan, eləcə də müdafiə naziri olmuş Seyran Ohanyandan gedir.**



# Sarkisyanla Köçəryanın adı Azərbaycanda Xocalı ilə bağlı cinayət işinə indiyə qədər niyə salınmayıb...

***Mehman Muradlı:** ”Bunun üçün biz icraçı və ya prosesin digər iştirakçılarının ələ keçməsinə nail olmalıyıq”*

Digər ağrılı məsələ isə əli günahsız insanların qanına bulaşmış şəxslərin adının təqsirləndirilən şəxslərin siyahısında olmaması ilə bağlıdır. Bu adamların adının ittiham aktında hələ də olmamasını Hərbi Prokurorluğun Xüsusi istintaq şöbəsinin rəisi Emil Tağıyev belə izah edib: "Həm Sarkisyan, həm Köçəryan, həm də digərləri barəsində cinayət işi istintaq olunur. Onların törətdikləri əməllər üzrə materiallar toplanır və bu işlər davam etdirilir. Gələcəkdə onların məsuliyyətə cəlb edilərək barələrində qəti imkan tədbirlərinin keçirilməsi və axtarışlarının elan edilməsi təmin ediləcək".

Emil Tağıyev bildirib ki, ağır cinayətlərin araşdırılması üzrə cəlb edilmiş bütün sənədlər həm İnterpola, həm də Daxili İşlər Nazirliyinin Cinayət-Axtarış İdarəsinə göndərilib: "Hazırda onların barəsində bütün sənədlər getməyib. Çünki cinayət işi istintaq olunur və sübutlar toplanır. Yaxın gələcəkdə o istiqamətdə işlər davam etdiriləcək".

Hərbi Prokurorluğun əməkdaşının verdiyi açıqlamadan belə başa düşülür ki, sözügedən şəxslərin adının ittiham aktına salınması üçün istintaq yekunlaşmalıdır. Onda belə bir sual da meydana çıxır: illərlə davam edən istintaq niyə yekunlaşmır?

Azərbaycan Vəkillər Kollegiyasının üzvü, hüquqşünas Mehman Muradlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məsələyə bir qədər hüquqi aspektdən yanaşmalıyıq: "Həmin adamların adı istintaq prosesində çəkilir. Prossesual normalara görə, cinayət işinin istintaqı tamamlanandan sonra ittiham aktı tərtib edilir. Orada təqsirləndirilənlərin, zərərçəkən və şahidlərin siyahısı müəyyən olunur. Ardınca isə məsələyə tam hüquqi qiyməti məhkəmə verir. İş aidiyyəti üzrə məhkəmələrə göndərilir. İstintaqın uzun illərdir davam etməsi də səbəbsiz deyil. Həm Köçəryanı, həm də Sarkisyanı cinayətə cəlb etmək üçün sübutlar toplanmalıdır. Bu da asan deyil. Əsirlikdən azad edilən şəxslərlə söhbətlər edilib. Sübut və dəlillərin olub-olmaması araşdırılır. İcraçılar tam məlumdur. Sifarişin kimlər tərəfindən verilmə məsələsinə hüquqi qiyməti mülahizə ilə vermək olmaz. Biz bunun siyasi tərəfini anlayırıq.

Ancaq yaxşı olar ki, bunun hüquqi əsaslandırılması da olsun. Bunun üçün biz icraçı və ya prosesin digər iştirakçılarının ələ keçməsinə nail olmalıyıq. Onlardan alınan ifadələr hesabına təşkilatçılara ittiham elan etməliyik. Etiraf edək ki, sıradan bir cinayət işi deyil. Bu 28 il ərzində Xocalı ilə bağlı çoxlu iş görülüb. Bu baxımdan da Hərbi Prokurorluğun əməkdaşının səsləndirdiyi məqamlarla tam razıyam. Əminəm ki, Xocalı faciəsinə zamanı çatanda lazımi hüquqi qiymət veriləcək".

***Məhəmmədəli QƏRİBLİ***

**Xocalı soyqırımının 28-ci ildönümünü qeyd etdiyimiz günlərdə sözügedən faciə zamanı erməni vandalları tərəfindən qətlə yetirilən azərbaycanlıların sayının rəsmi rəqəmlərdən daha çox olduğu barədə fikirlər səslənir.**



# Xocalıda 613 nəfər deyil, ən azı 2613 nəfər qətlə yetirilib - Yunus Oğuzun baxışı...

Yazıçı-publisist, tarixi romanlar müəllifi Yunus Oğuz da "OLAYLAR"-a verdiyi açıqlamada belə bir faktla rastlaşdığını deyib. O bildirib ki, hazırda Livanda məskunlaşmış erməni yazıçı-jurnalist David Xerdiyanın "Xaç uğrunda" kitabında Xocalıda qətlə yetirilən azərbaycanlıların 613 nəfər deyil, 2613 olduğu bildirilir: "Devid Xerdiyan Xocalıda ermənilərin Azərbaycan türklərinə qarşı həyata keçirdiyi vəhşilikləri fəxrlə xatırlayır. Onun "Xaç uğrunda" kitabının 19 və 76-cı səhifələrində qeyd edilir ki, martın 2-də "Qaflan" erməni qrupu meyitləri yandırmaqla məşğul idi. 2000-nə yaxın türklərin cəsədini toplayıb ayrı-ayrı hissələrdə Xocalının 1 kilometrliyində yandırdı. Axırıncı yük maşınında mən başından və qollarından yaralanmış təxminən 10 yaşlı bir qız uşağını gördüm. Diqqətlə baxanda gördüm ki, o yavaş-yavaş nəfəs alır. Soyuq, aclıq və ağır yaralanmasına baxmayaraq, o hələ də sağ idi. Ölümlə mübarizə aparan bu uşağın gözlərini mən heç vaxt yaddan çıxarmayacam. Sonra Tiqranyan familyalı bir əsgər onun qulaqlarından tutub üzərinə mazut tökülmüş cəsədlərin içərisinə atdı. Daha sonra onları yandırdılar. Tonqaldan ağlamaq və imdad səsləri gəlirdi".

Yunus Oğuz deyib ki, Xocalıda qətliamı həyata keçirən ermənilər qətlə yetirdikləri azərbaycanlıların sayını 2613 nəfər göstərdiyi halda, hələ də rəsmi rəqəmlərdə Xocalı soyqırımında 613 nəfərin həlak olması barədə məlumatların əksini tapması ziddiyyətlidir. Yazıçı hüquq-mühafizə orqanlarının bu məsələyə diqqət çəkəcəklərinə əminliyini ifadə edib: "Əgər həmin qətliamı həyata keçirən erməni etiraf edirsə ki, 2613 nəfəri qətlə yetirmişik, biz nə üçün 613 nəfər deyirik? Adətən ermənilər törətdikləri vəhşilikləri gizlətməyə çalışırlar. Fikir verin, Xocalıda nə qədər azərbaycanlı qətlə yetirilib ki, onlar 2613 nəfəri öldürdüklərini etiraf edirlər". Yunus Oğuz onu da qeyd edib ki, milli qəhrəman Allahverdi Bağırov da Xocalı soyqırımı zamanı minlərlə insan cəsədi daşıdıqlarını bildirmişdi.



# Türk Hava Yolları Naxçıvana uçuşları müvəqqəti dayandırdı

**Türk Hava Yolları Azərbaycanın Naxçıvan Muxtar Respublikasına uçuşları dayandırıb. "Trend"in məlumatına görə, bu barədə məlumatı şirkətin İdarə Heyətinin sədri İlkər Aycı deyib.**

Türk Hava Yollarının Bakı ofisinin rəhbəri Seyfullah İlyas isə bildirib ki, Türkiyədən Naxçıvana ümumilikdə dörd uçuş təxirə salınıb və bu, koronavirusla mübarizə çərçivəsində atılan addımdır.

Bakı və Gəncəyə uçuşlar isə qrafikə uyğun davam edir.

Qeyd olunub ki, eyni zamanda Səudiyyə Ərəbistanı və İrana da uçuşlar dayandırılıb, Naxçıvana isə müvəqqəti dayandırılıb.

# Ermənilərin təzə "Xocalı uydurması" - "Biz Xocalıda etməsəydik, onlar Stepanakertdə edəcəkdilər..."



***Aydın Quliyev:** "Bir məsələ haqda neçə yalan uydurmaq olar?!"*

***Samir Adıgözəlli:** "Bu çabalamanın özündə belə etiraf varsa, deməli, ermənilər Azərbaycanın təbliğatı qarşısında duruş gətirə bilmirlər"*

**Hər dəfə Xocalı faciəsinin ildönümü yaxınlaşanda ermənilər baş verən hadisə ilə bağlı yeni-yeni faktlar uydurmağa başlayırlar. "Adi soyqırım" adlı layihənin rəhbəri Marina Qriqoryan Ermənistan KİV-nə açıqlamasında bildirib ki, guya ermənilər həmin əməliyyatı məcbur olub həyata keçiriblər.**

Qriqoryan bunu o vaxtkı Dağlıq Qarabağ Muxrat Vilayətinin paytaxtı Xankəndi şəhərinin ağır humanitar böhran içində olması ilə əsaslandırıb: "Şəhər tamamilə blokadadaydı. Dərman, ərzaq, istilik yox idi. Bununla yanaşı, Azərbaycan tərəfi hər gün şəhəri bir neçə mövqedən bombalayırdı. Həmin vaxt şəhərdə olan 80 min dinc əhalini xilas etmək üçün belə bir əməliyyat keçirildi. Çünki "Artsax"da yeganə aeroport məhz Xocalıdaydı. Bu addım ona görə atıldı ki, aeroport vasitəsilə bizim Ermənistanla əlaqə saxlamağımız mümkün olsun".

Göründüyü kimi, erməni tərəfi indi də tamamilə yeni bir versiya ortaya atıb. Əvvəl deyirdilər ki, orada sonradan Ermənistana rəhbərlik etmiş şəxslər şəxsən iştirak edib. Sonra Paşinyan bunu Ayaz Mütəllibova saxta istinad etməklə guya Azərbaycan müxalifətinin törətdiyini bildirdi. Münhen Konfransından sonra ölkəsinə gedəndə isə özünün sosial şəbəkələrdəki hesabında Xocalı qətliamını rusların törətdiyini dedi. İndi də guya bunun məcburiyyətdən törədildiyinə dair saxta bir versiyanı gündəmə buraxırlar. Ermənilərin Xocalı faciəsilə bağlı cürbəcür uydurmalarla çıxış etməsinin kökündə hansı amil dayanır?

"Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev bu məsələyə öz mövqeyini sosial şəbəkədəki hesabında açıqlayıb. O hesab edir ki, ermənilər bu məsələdə çoxlu sayda yalan uydurublar: "Bir məsələ haqda neçə yalan uydurmaq olar?! Xocalı hadisələrinin həqiqətdə genosid olduğuna dair fikirlər dünyada sürətlə hamının qəbul etdiyi rəyə çevrilməkdədir. Bu, təbii ki, erməniləri narahat edir. Cürbəcür yalanlar və bir-birini inkar edən ziddiyyətli mətləblər ortaya qoyurlar. Bu klassik erməni yalanlarının bir neçəsini yada salaq.

1. Sabiq prezident Sarkisyan 1992-ci ildə Xocalıda quldur erməni dəstələrinin başçısı kimi bu cinayəti törədəndən sonra demişdi: "bu vaxta qədər azərbaycanlılar elə bilirdilər ki ,biz dinc əhaliyə əl qaldırmarıq, ancaq biz bunu etdik". Cinayətkarın bu fikri bir məşhur ingilis jurnalistinin kitabına da düşüb. Sarkisyan həmin jurnalistə müsahibə verib. Əslində, birmənalı etiraf edib ki, Xocalı dəhşətini biz törətmişik.

2. Paşinyan Münhen Təhlükəsizlik Konfransında dedi ki, Xocalını azərbaycanlılar özləri törədiblər və guya o vaxtkı prezident Mütəllibov bunu özü deyib. Düzdür, o bu yalanına görə elə yerindəcə İlham Əliyevdən sarsıdıcı cavabını aldı. Ancaq yalanlar danışmaqdan qalmadı.

3. Paşinyan Münhen Konfransından İrəvana qayıdandan sonra İTV-yə müsahibəsində daha bir yalan uydurdu. Dedi ki, bizlik bir şey yoxdur və Xocalı hadisələrini ruslar törədiblər. Doğrudur, Rusiya səfirliyindən bu yalan üçün də cavabını aldı. Ancaq başqa yalan danışmayacağına hələlik inandırıcı bir təminat verməyib.

4. Xocalı barədə növbəti yalanı iki gün əvvəl, əslində, Paşinyan hökumətinin təşkil etdiyi və Xocalı hadisələrinin 28-ci ildönümünə həsr olunmuş konfransda ekspert kimi təqdim olunan Mariya Qriqoryan deyib. Daha doğrusu, dedizdiriblər. Onun sözü - "biz Stepanakertdəki 80 min ermənini xilas etmək üçün Xocalını tutduq, biz Xocalını tutmasaydıq, onlar Stepanakerti tutacaqdılar". Mariya davam edir - "Stepanakert mühasirədə idi, azərbaycanlılar dinc əhalinin başına bomba yağdırırdılar, yeganə nicatımız Xocalıdakı aeroport idi". Yalanlara baxın. Xankəndi nə vaxt və necə mühasirəyə salına bilərdi?! Azərbaycanlıların o vaxt hərbi aviasiyası var idi ki, ermənilərin başına bomba töksün?! Stepanakert bizim öz torpağımız olduğu və Xankəndi adı ilə tarixi Azərbaycan şəhəri kimi yarandığı halda, onun hansı tutulmasından söhbət gedə bilərdi?! Xankəndinin mifik xilas edilməsi hansı məntiqlə Xocalının silahsız sakinlərini qan dəryasında boğmağa əsas verə bilərdi?!

Xocalını qan dəryasında boğdular, özləri isə yalanlar dəryasında boğulur..."

İctimai-Siyasi Proseslər Beynəlxalq Araşdırmalar Mərkəzinin (İSBAM) rəhbəri Samir Adıgözəlli də "Bakı-Xəbər"ə açıqlamasında ermənilərin yeni çabalarını yersiz adlandırdı: "Xocalı ilə bağlı təbliğatda Azərbaycan Ermənistanı tam üstələyib. Bilirsiniz ki, həmin hadisənin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycan bir neçə yolla ciddi iş aparır. Bura istər dövlət xəttilə aparılan təbliğatı, istərsə də QHT-lər vasitəsilə aparılanı aid etmək olar. Mən izlədim ki, builki ildönümə dünyanın nüfuzlu KİV-i də geniş reaksiya verdi. Hətta Rusiya mətbuatında faciəni əks etdirən dəhşətli fotolar paylaşıldı. Belə təbliğatın qabağında duruş gətirə bilməyən ermənilər indi də bu yola əl atırlar.

**Fikir verirsinizsə, hətta bu məsələdə belə ermənilərin gerilədiyi hiss olunur. Əvvəl Xocalının, ümumiyyətlə, onlar tərəfindən törədilmədiyini bildirirdilər. Son versiyalarında isə qətliamın törədildiyini etiraf edirlər, yalnız həmin hadisəyə haqq qazandırmağa çalışırlar. Bu çabalamanın özündə belə etiraf varsa, deməli, ermənilər Azərbaycanın təbliğatı qarşısında duruş gətirə bilmirlər".**

*Məhəmmədəli*
***QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan ordusunda dağılma - yoluxucu xəstəliklər, ayrıseçkilik, qətl və intiharlar...

**Azərbaycanla müharibə vəziyyətində olan Ermənistanda ən böyük problemlərin yaşandığı sahələrdən biri də silahlı qüvvələrdir. Bu ölkə ordusunda yaşanan xaosun dərinləşməsi fonunda baş verənlərin Dağlıq Qarabağ münaqişəsinin gedişinə təsiri də düşmən ölkədə başlıca müzakirə predmetlərindən biridir.**

Qeyd olunan xüsusda ermənilərin əsas narahatlığı həm də budur ki, Qarabağ konflikti hərbi müstəvidə çözüləcəyi halda erməni ordusu Azərbaycanın hücumları ilə qısa müddətdə darmadağın olacaq.

Bütün bunlar fonunda erməni mediası yenidən diqqəti orduda olan problemlərə yönəldir. Bildirilir ki, təminat sarıdan böyük çətinliklər yaşanan ordunu baxımsızlıq üzündən müxtəlif növ xəstəliklər bürüyüb. Yeri gəlmişkən qeyd edək ki, Ermənistan ordusunda hərbi qulluqçular arasında yoluxucu xəstəliklərin tüğyan etdiyi bir vaxtda növbəti hadisə baş verib. Belə ki, Ermənistanda sosial şəbəkələrdə yayılan məlumatlara görə, Qafanda yerləşən hərbi hissələrdən birində xidmət edən hərbi qulluqçu İqor Sarkisyan koronavirusa yoluxduğu üçün təcili hospitala yerləşdirilib. Bir neçə gün əvvəl hərbi qulluqçunun koronavirusa yoluxduğuna dair xəbər verilməsinə baxmayaraq, bu onun valideynlərindən və ictimaiyyətdən gizlədilir. Hərbi qulluqçu təcrid edilərək karantinə alınıb. Onun ailə üzvləri ilə əlaqə saxlanılmasına da icazə verilmir. Ermənistan rəhbərliyi ölkədə bu xəstəliyin aşkar edilmədiyi və koronavirusla mübarizə aparmaqla bağlı açıqlamalar verməklə əhalini sakitləşdirməyə çalışır. Amma reallıq tam fərqlidir.

Xatırladaq ki, rəsmi məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxmada şübhəli bilinən 36 nəfər xəstəxanaya yerləşdirilib. Bunların əksəriyyəti "Zvartnots" hava limanında, Baqrataşen keçid məntəqəsində qeydə alınıb. Meqri keçid məntəqəsində isə bir şübhəli aşkar edilib. Məsələ ilə bağlı "jamnews" portalı yazır: "Cənub hissəsində İranla birbaşa sərhədi olan Ermənistan fevralın 23-dən etibarən bu ölkə ilə sərhədi iki həftəlik bağlayıb. İki ölkə arasında hava əlaqəsi də, tam bağlanmasa da, məhdudlaşdırılıb. Bu, Ermənistan üçün iqtisadi cəhətdən çox ağır qərardır, çünki bu ölkənin yalnız bir açıq sərhədi qalıb - Gürcüstanla. Bununla əlaqədar olaraq ölkənin baş naziri Nikol Paşinyan izahat verməli olub. O bildirib ki, qapalı sərhəd İranla yükdaşımalarına mane olmayacaq. Yükdaşımalar məhdudiyyətsiz həyata keçiriləcək. Onun sözlərinə görə, iki həftə ərzində Ermənistan hökuməti İran hökuməti ilə sıx əlaqədə işləmək, bundan sonrakı addımları müəyyənləşdirmək üçün koronavirusun yayılmasının miqyası haqda məlumatları təhlil etmək niyyətindədir. Amma görünən budur ki, virus artıq ölkəyə ayaq açıb, hətta orduya belə sirayət edib. İndi bilinmir ki, nə qədər əsgərin, zabitin həyatı təhlükə altındadır".

Hələlik görünən budur ki, xəstəlik artıq erməni ordusuna da sirayət edib. Düşmən ordusunda gigiyenik vəziyyətin ağır olması fonunda yeni xəstəliyin burada hərbçilər arasında daha sürətlə yayılması istisna olunmur. Xüsusilə Azərbaycanın işğal edilmiş yaşayış məntəqələrində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində acınacaqlı vəziyyət, tibb xidmətinin yarıtmazlığı və tibbi ləvazimatların qıtlığı səbəbindən şəxsi heyət arasında geniş yayılmış yoluxucu xəstəliklər burada daha dəhşətli durumun yaranacağını istisna etmir. Hətta bu günlərdə şəxsi heyət arasında kəskin respirator xəstəliklərin artması ilə əlaqədar bir taborda karantin elan edilib. Otuzdan çox əsgər su çiçəyinə tutulduğundan hərbi hospitala yerləşdirilib, alayın iki hərbi qulluqçusu isə sətəlcəm diaqnozu ilə İrəvan hərbi hospitalına göndərilib. Araşdırma nəticəsində məlum olub ki, suçiçəyi xəstəliyinə tutulan əsgərlərin əksəriyyəti hərbi xidmətə yeni çağırılanlardır. Yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün hərbi hissənin ehtiyat bölmələrinin bölük və taqım komandirləri ilə profilaktik tədbirlər mövzusunda məşğələlər keçirilsə də, nəticə yoxdur. Erməni mediası yazır ki, orduda yalnız az sayda hərbçiyə diqqət yetirilir ki, onlar da vəzifəli şəxslərə bağlı olanlardır. Hərbi bloqer Arşak Zakaryan yazır ki, onlardan biri elə Paşinyanın oğludur və o, hərbi xidmət zamanı cangüdənlərlə gəzir. Aşot Paşinyanın təhlükəsizliyini isə Dövlət Mühafizə Xidməti təmin edir. Məlumata görə, konkret olaraq Aşot Paşinyanın təhlükəsizliyini təmin edənlər Qarabağ sakinləridir. O da vurğulanır ki, Aşot Paşinyanın da xidməti avtomobili var. "Toyota Land Cruiser Prado" markalı avtomobil 2013-cü il istehsalıdır. Avtomobilin bazar qiyməti isə 35 min dollardır. Xatırladaq ki, bundan əvvəl "Antifeyk" xəbər agentliyi də Aşot Paşinyanın qanunda nəzərdə tutulandan daha çox məzuniyyətdə olduğunu bildirib. Məhz belə yanaşma fonunda Paşinyanın da ordudakı problemləri həll etməsi mümkünsüz sayılır. Əksinə, yaranmış durumda erməni ordusunda baxımsızlıq üzündən xəstəliklərin tüğyan edəcəyi, bundan isə Aşot Paşinyan kimi azsaylı tapşırılmış əsgərlərin qoruna biləcəyi vurğulanır. İndilikdə Dağlıq Qarabağda yerləşən Ermənistan ordusunun hərbçiləri arasında yoluxucu xəstəliklər tüğyan edir.

Karantin tədbirlərinin görülməsinə baxmayaraq, hərbi qulluqçuların əksəriyyətinin səhhətində ciddi problemlər qeydə alınır. Ermənistan Silahlı Qüvvələrinin polkovnik-leytenantı Albert Hovannisyan bu xüsusda bildirir: "Biz xidmət etdiyimiz dövrdə, Manvel Qriqoryanın dövründə dinc vaxtda ölənlər bugünkündən daha az olub, çünki sahib və usta yoxdur. Hazırda orduda nəzarət olduqca pisdir. Bu səbəbdən xəstəliklərin yayılması, dinc vaxtda əsgər itkilərinin olması qaçılmazdır. David Tonoyanın Ermənistan Müdafiə Nazirliyinə rəhbərlik etdiyi dövrdə hərbi hissələrdə qeyri-döyüş şəraitində ölən əsgərlərin sayında durmadan artır".

Çağırışçılarla bağlı problem də erməni ordusunun əsas çətinliklərindən biridir. Erməni ekspert Qayane Hovannisyan bu xüsusda qeyd edir:"Son illərin müşahidələri göstərir ki, hərbi xidmətə çağırışçıların 60 faizinin sağlamlığında müxtəlif problemlər olur. Bunlar ən çox ürək-damar xəstəlikləri, bel-onurğa, göz zəifliyi, allergiya, sinir xəstəlikləri və sair olur. Bu xəstələrin əksəriyyəti müalicə olunmadan hərbi xidmətə göndərilir. Təbii ki, hərbi xidmət zamanı onlar yararsız olur, tələbləri yerinə yetirə bilmir. Ordunun bu problemi hələ də davam edir. Daha bir problem odur ki, orduda xəstələnən əsgər və zabitlər müalicə olunmaq imkanından məhrumdur. Hərbi xəstəxanaların yoxluğu və kadr çatışmazlığı ucbatından xəstələnən əsgər və zabitlərə müalicə olunmaq üçün xəstəxanaya getməyə icazə verilmir".

Bundan başqa məlumdur ki, intizamsızlıq da düşmən ordusunun başlıca problemələrindən biri olaraq qalır. Ermənistan ordusunda əsgərlərin bir-birini odlu silahla qətlə yetirməsi halları tez-tez baş verir. Bütün bunlar xalqdan gizlədilir, ölənlərin və intihar edənlərin sayı barədə dəqiq məlumat verilmir. Xüsusilə də Ermənistan Müdafiə Nazirliyi əsgərlər arasında baş vermiş silahlı qarşıdurmanı qəza hadisəsi kimi təqdim etməyə çalışır. Həmçinin əsgərlərdən birinin digərinə atəş açması nəticəsində baş verən ölüm və ağır yaralanma hallarını örtbasdır etməyə çalışan Ermənistanın Müdafiə Nazirliyi bütün bunların, əsgər ölümünün guya atəşkəsin pozulması nəticəsində baş verdiyi barədə məlumat yayaraq ictimaiyyəti aldadır. Bütün bunlar Ermənistan ordusundakı intizamsızlıq və özbaşınalıqdan xəbər verir. Eyni zamanda, bunun kökündə işğalçı ölkənin ordusunda əsgər-komandir inamsızlığı, etimadsızlığı və nizamnamədənkənar halların baş verməsi, əsgərlərin yüksək rütbəli zabitlər tərəfindən qul kimi işlədilməsi dayanır. Ona görə də Ermənistanda yerli əhali övladlarını kütləvi surətdə hərbi xidmətdən yayındırmağa çalışır. Valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyətini komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması, əsgərlərin alçaldılması və döyülməsi faktları təşkil edir. Bu səbəbdən də valideynlər bütün vasitələrlə övladlarını hərbi xidmətdən yayındırır, müxtəlif bəhanələrlə ölkədən çıxarırlar. Statistik məlumatlar da təsdiqləyir ki, son illər ölkəni tərk edənlər arasında gənclər çoxluq təşkil edir. Onların əksəriyyəti hərbi xidmətdən açıq şəkildə imtina edir. Erməni mediasında yer alan məlumatlara görə, 2004-cü ildən başlayaraq, demək olar ki, hər il Ermənistanda çağırış zamanı hərbi hissələrin çağırışçılarla tam şəkildə komplektləşdirilməməsi ciddi problem olaraq ortaya çıxır.

Nəticə etibarı ilə hərbi xidmətdən tərxis olunanların evlərinə buraxılması bəzi hallarda aylarla ləngiyir. Bununla da daha çox döyüş bölgəsində yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər üzləşir. Məhz Azərbaycanla dövlət sərhədində və işğal olunmuş Azərbaycan ərazilərində yerləşən hərbi hissələrdə bu boşluğu doldurmaq üçün Ermənistanın hərbi rəhbərliyi və separatçı rejim mülki əhalinin "xidmətindən" istifadə etməyə çalışır. Bu məqsədlə yerli əhali müqavilə əsasında xidmətə cəlb olunur. Amma bu da nəticə vermir. Digər tərəfdən, acınacaqlı vəziyyətdə qulluq etmək istəməyən əsgərlər hərbi hissələri tərk edir. Məcburi hərbi xidmətdən yayınmaya görə müxtəlif illərdə minlərlə əsgərə cinayət işinin açılması da bunun real təsdiqidir. Təbii ki, belə bir ordu ilə düşmənin işğal siyasətini davam etdirməsi müşkül məsələdir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənilərin "Tehran-43 nağılı" - Gevorq Vartanyanı mifik kəşfiyyatçı kimi təqdim edirlər, qaldı Njde ilə Vartanyanın İrəvanda qoşa heykəli...

**Ermənilər yenə də öz ənənələrinə sadiq qalaraq tarixi faktları saxtalaşdırmaqda, başqalarının uğurlarını öz adlarına yazmaqda davam edirlər. Guya ki, Sovet dövründə baş verən bütün hadisələrin əsas "hərəkətverici qüvvəsi" ermənilər olub. Erməni mediası gecə-gündüz yalanlar uydurmaqdan başqa bir iş bacarmır, bacarsaydı, tarixi faktları bir kənara qoyub, qondarma "fakt" yaratmazdılar.**

Ermənistan mediası bu dəfə elə yalan, təxribat dolu bir məlumat gündəmə gətirib ki,

oxuyanın ayağının altından yer qaçır. Erməni mətbuatı yazır ki, 1943-cü ildə keçirilən məşhur Tehran konfransında Stalin, Ruzvelt və Çörçilə qarşı faşist Hitlerin hərbi kəşfiyyatı ABVER-in hazırladığı sui-qəsd planının qarşısını guya ermənilərin "əfsanəvi kəşfiyyatçı"sı Gevorq Vartanyan alıb. Rostovda yaşayan Xaçik Xutlubyanın saxtakar G.Vartanyanın "kəşfiyyatçılıq" məharətinə həsr etdiyi "ABVER-i idmuş agent" kitabına "istinadən" erməni mediasının yazdığı bu yalanlara özlərindən başqa inanan yoxdur.

Erməni mediasına açıqlama verən müəllif deyib ki, guya ona Vartanyan barədə kitabın yazılmasını vaxtilə Rusiyanın kəşfiyyat idarəsinin rəisi Sergey İvanov təklif edib. Müəllif iddia edib ki, guya İvanov şəxsən ona zəng edərək "belə bir qəhrəman var, onunla bağlı bu məsələni yazmaq lazımdır" deyib. Buna əsasən müəllif tərəfindən yalan və qondarma məlumatların, mülahizələrin əsaslandırılmasına çalışılıb.

Qeyd edək ki, ermənilərin bu iddiası tamamilə yanılışdır və Hitlerin casus-kəşfiyyat şəbəkəsinə aid ABVER-in Tehran konfransında antihitler koalisiyasında birləşən üç dövlətin başçısına sui-qəsd planının üstünü Vartanyan deyil, azərbaycanlı kəşfiyyatçı açıb.

Bu barədə bir neçə il əvvəl tanınmış siyasi şərhçi, millət vəkili Arzu Nağıyev özünün Tehran-43 konfransına həsr etdiyi yazısında geniş bəhs edib. Siyasi şərhçi A.Nağıyev yazır: "İkinci Dünya Müharibəsində Azərbaycan övladlarının göstərdiyi əzmkarlıq və böyük qəhrəmanlıqlar faşizm üzərində qələbəni yaxınlaşdıran amillərdən biri idi. Tarixin bu səhifəsini də mənfur qonşularımız olan ermənilər öz havadarları vasitəsilə öz xeyirlərinə yazmağa çalışıblar və müəyyən qədər buna nail olublar. Əsas məqsəd Azərbaycanın və azərbaycanlıların rolunu kiçiltmək, mütəmadi olaraq heçə endirmək olub. Ancaq tarixi silmək olmur, müəyyən qədər dəyişdirmək olur. Bu araşdırma vasitəsilə Azərbaycanın və onun mərd oğullarının tarix üçün verdiyi əvəzsiz xidmətləri hər bir azərbaycanlının nəzərinə çatdırmağa çalışmaq lazımdır. Belə əvəzsiz xidmətlərdən biri də "Tehran 43" əməliyyatının iştirakçısı, həmyerlimiz, uzun müddət kəşfiyyat orqanlarında çalışmış Məmmədhüseyn Əsədova aiddir. Demək olar ki, keçirilən əməliyyatların hamısı onun birbaşa istirakı və ya rəhbərliyi ilə mümkün olurdu.

Bəs, Məmmədhüseyn Əsədov kim idi?

Əsədov Məmmədhüseyn Xudadat oğlu 1899-cu ildə Həştərxanda anadan olub. 19 yaşında olarkən Qızıl Ordunun xüsusi təyinatlı hərbi hissəsində qulluq etməyə başlayır. Böyük Vətən Müharibəsi başlayanda əməliyyat şəraitini yaxşı bildiyi, bir neçə dildə sərbəst danışdığı üçün və geniş kəşfiyyat imkanları olduğuna görə Əsədovu Baş Kəşfiyyat İdarəsi tərəfindən İrana işləməyə göndərirlər. Əsas iş istiqaməti isə ingilis və alman kəşfiyyatına qarşı əməliyyatların təşkilindən ibarət olub. Beləliklə, 1943-cü ildə İran antihitler koalisiyası rəhbərlərinin danışıqları üçün ən məqbul yer kimi seçilir. Bu, Stalinin təklifi idi. Konfransa hazırlıq tam məxfi şəraitdə aparılırdı. Bu barədə xəbəri olanlardan biri də Məmmədhüseyn Əsədov idi. Müttəfiqlər hətta İran tərəfini təhlükəsizlik baxımından xəbərdar etmirdilər. Konfransın başlamasına 6 gün qalmış, yəni 22 noyabr 1943-cü ildə İran tərəfinə məlumat verildi.

Noyabrın 24-də Baş Komandanlığın üzvü, Baş Qərargah rəisi, SSRİ marşalı Aleksandr Vasilyevski gecə Astaraya gəlir və onu Məmmədhüseyn Əsədov qarşılayır. Həmin gün gecə saat 4-ə qədər Astarada Məmmədhüseynin evində qalan marşal Vasilyevski 2 saatdan sonra Əsədovla bir yerdə İrana gedir. Marşalın gəlməsində əsas məqsəd liderlərin görüşü vaxtı qoşun hissələrini təlimatlandırmaq və bir daha Stalinin göstərişi ilə təhlükəsizlik məsələlərini yoxlamaq idi. Noyabrın 26-da Stalin Tehrana gəlir və təyyarəsi Kale-morqe hərbi aerodromuna enir. Noyabrın 28-də konfrans baş tutur. Həmin vaxt Almaniya kəşfiyyatının dövlət başçılarına qarşı edəcəkləri sui-qəsd və terror aktı haqqında eyni zamanda Məmmədhüseyn Əsədova məlumat verilir və o da, öz növbəsində, təcili olaraq bu məlumatı rəhbərliyə məruzə edir. Vaxtında verilmiş məlumat nəticəsində planlaşdırılmış sui-qəsdin qarşısı çox peşəkarcasına alınır. İlk dəfə bu sui-qəsdlə bağlı geniş ictimaiyyətə mətbuat konfransı vaxtı, 17 dekabr 1943-cü ildə ABŞ Prezidenti F.Ruzvelt məlumat verir. Bu sui-qəsdin qarşısının alınmasında müstəsna rolu olmuş Məmmədhüseyn Əsədov iki mükafatla - "Lenin" ordeni və "Qırmızı ulduz" ordeni ilə təltif edilir. Müharibədən sonra bu mövzuya bir neçə dəfə qayıdılır və sovet kəşfiyyatının rəhbərlərinin Stalinin 70 illiyinə bir sürpriz etmək fikirləri olur. Sürprizlərdən biri də o vaxt, yəni 1943-cü ildə 19 yaşı olan kəşfiyyatçı G.Vartanyanın guya bu sui-qəsdin qarşısının alınmasında müstəsna rolu olması idi. Tarixi araşdırmalar göstərir ki, bu mövzu, demək olar ki, 1968-ci ilə qədər qapalı olub. Sonradan isə bu mövzuya qayıdılıb və Vartanyan söhbəti gündəmə gəlib".

G.Vartanyan haqqında da məlumat verən A.Nağıyev qeyd edir ki, onun haqqında ən dəqiq məlumatı Vladimir Voronov verib. "Bu barədə öz araşdırmalarında 1930-1940-cı illərdə SSRİ-nin hərbi və xarici siyasəti üzrə ekspert, tarixçi və jurnalist Vladimir Voronov yazır: "Vartanyanın atası Siyasi idarənin, sonradan da Daxili İşlər Xalq Komissarlığının ən aşağı səviyyəli agenti olub. Bir müddət İranda fəaliyyət göstərib və sonradan Rostova qayıdıb. Oğlu Gevork isə İranda qalıb. Vartanyan və onun ətrafındakı bir neçə gənc erməni uşağı kimi isə döymək, soymaq, izləmək kimi xırda işlərlə məşğul olurdu və təbii ki, kəşfiyyat orqanları onlardan istifadə edirdilər. Adlarını "uçan kavaleriya" qoyub, əsasən ingilislərə qarşı xırda izləmə və təxribat xarakterli işlər görürdülər. Belə kiçik mahiyyətli tapşırıqları yerinə yetirən qrupun üzvünün ciddi casus şəbəkəsindən, ümumiyyətlə, xəbəri ola bilməzdi".

Yəni Vartanyan hətta kəşfiyyatçı olsa belə, on illərdən sonra nəyə isə nail olub və "Tehran 43" məsələsinə heç bir aidiyyəti olmayıb. 1984-cü ildə ona Sovet İttifaqı Qəhrəmanı adı ola bilsin ki, başqa tapşırıqların yerinə yetirilməsinə görə verilib.

Yaxın tariximiz olan 1999-cu ildə xüsusi xidmət orqanları rəhbərlərinin Moskvada keçirilən görüşündə Vartanyan bütün mükafatlarına görə azərbaycanlılara minnətdar olduğunu özü də etiraf edib.

Beləliklə, "Tehran 43" əməliyyatının keçirilməsində və dövlət başçılarına qarşı sui-qəsdin qarşısının alınmasında azərbaycanlı kəşfiyyatçı Məmmədhüseyn Əsədovun müstəsna xidmətləri olub..."

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Qafqazşünaslıq İnstitutunun ermənişünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyev erməni mediasının yaydığı məlumatın və "ABVER-i udmuş agent" kitabının tamamilə yalan üzərində qurulduğunu bildirdi. Q.Hacıyevin sözlərinə görə, heç bir arxiv sənədində, tarixi-elmi məlumatlarda "əfsanəsi erməni kəşfiyyatçısı"nın adı keçmir. O qeyd etdi ki, Tehran-43 konfransında iştirak edən Stalin, Çörçil və Ruzveltə qarşı Hitlerin hərbi-kəşfiyyat dəstəsi olan ABVER-in planlaşdırdığı sui-qəsdin üstünün açılmasında Vartanyanın əlinin olması qətiyyən həqiqət deyil. Q.Hacıyev vurğuladı ki, həmin konfransla bağlı məxfi sənədlərdə "xilaskar" kimi "əfsanəvi erməni kəşfiyyatçısı"nın adının keçməsi inandırıcı deyil. Bunun növbəti erməni uydurması olduğunu deyən Q.Hacıyevin sözlərinə görə, əgər bu həqiqət olmuş olsaydı, ermənilər bu barədə Sovet dövründə danışardılar. Faşizmin alovlu təbliğatçısı olan və bunu dövlət siyasətinə çevirən Ermənistanın bu gün G.Vartanyanın "kəşfiyyatçılıq məharətini" gündəmə gətirməkdə məqsədi yenə də faşist əlaltılarına bəslədiyi rəğbətin bir örnəyidir. "Mən bir tarixçi kimi, erməni mənbələrini, onların bütün dövrlərdə yazdıqlarını araşdıran bir ermənişünas kimi indiyə qədər G.Vartanyanın "qəhrəmanlığı" haqqında heç bir məlumata rast gəlməmişəm. Əgər Tehran-43 konfransında Vartanyan adlı kəşfiyyatçı, agent belə bir "fədakarlıq" göstərsəydi, indiyə qədər ermənilər bunu şişirdib dağ başına qoyardılar. Eyni zamanda,





***Arzu Nağıyev:** ”Tehran-43” əməliyyatının keçirilməsində və dövlət başçılarına qarşı sui-qəsdin qarşısının alınmasında azərbaycanlı kəşfiyyatçı Məmmədhüseyn Əsədovun müstəsna xidmətləri olub”*

***Qasım Hacıyev:** ”Bu gün ermənilərin Məmmədhüseyn Əsədovun uğurunu Hitlerə casusluq etdiyi ehtimal edilən Gevorq Vartanyanın adına yazmaq cəhdləri böyük tarixi saxtakarlıqdır”*

Stalinin ətrafında olan ermənilər bu "planın açılmasında birbaşa iştirakına görə" Stalindən ona "Sovet İttifaqı Qəhrəmanı" adı verilməsini xahiş edərdilər. Bilirsiniz ki, ermənilər belə bir fakt baş versəydi, mütləq onu dünya ilə bir edərdilər. Amma, məlum olduğu kimi, Tehran-43 konfransında Stalinin, Çörçilin və Ruzveltin həyatını ABVER-in sui-qəsd planından Azərbaycan cəsur kəşfiyyatçısı qurtarıb və buna görə də SSRİ-nin yüksək mükafatlarına layiq görülüb. Bu gün ermənilərin Məmmədhüseyn Əsədovun uğurunu Hitlerə casusluq etdiyi ehtimal edilən G.Vartanyanın adına yazmaq cəhdləri böyük tarixi saxtakarlıqdır. Vartanyan adlı agentin adı bu məsələdə çəkilmir. Ola bilsin ki, konfrans zamanı Vartanyan da Tehranda olub, amma o bura antihitlerçi qüvvələri təmsil edən dövlətlərin başçılarını ABVER-in sui-qəsdindən xilas etmək üçün yox, başqa bir məqsədlər üçün gəlib. Yəni ABVER-in əlaltısı kimi oralarda ona tapşırılan kiçik işləri görüb. Vartanyanın faşist əlaltısı olan Njdenin tapşırığı ilə SSRİ kəşfiyyatında yerləşdirilməsi, faşistlərin xeyrinə casusluq etməsi daha inandırıcı görünür. Njde kimi Vartanyan da faşist əlaltısı olub və ermənilərin də faşistlərə, onlara qulluq edən şəxslərə rəğbəti olduğu üçün bu gün Vartanyanı "qəhrəmanlaşdırırlar". Yəqin ki, onlar Vartanyana da heykəl qoymaq istəyirlər. Qoysalar, heç təəccüblənmərəm. Çünki Njdeyə və başqa faşist əlaltılarına heykəl qoyan Ermənistandan bundan artıq nəsə gözləmək olmaz".

Q.Hacıyev vurğuladı ki, tarixən ermənilərdən başqa dövlətlər öz xeyirlərinə casus kimi istifadə ediblər. Səfəvilər dövründə onların bütün sirlərini düşmən dövlətlərə çatdıran, aradakı nifaqı qızışdıranlar da məhz həmişə erməni casusları olub. "Bu baxımdan hesab edirəm ki, Vartanyan da Njde kimi faşist əlaltısı olub və o konfransa da (əgər gedibsə) məhz Hitlerin tapşırığını yerinə yetirmək üçün gedib. Lakin Azərbaycanın cəsur oğlunun sui-qəsd planından vaxtında xəbər tutması nəticəsində plan baş tutmayıb" - deyə Q.Hacıyev vurğuladı.

***İradə SARIYEVA***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

**Ermənistan silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı törətdiyi soyqırım cinayətlərindən biri də Qaradağlı soyqırımı, Qaradağlı faciəsidir. Xalqımızın tarixində ən böyük faciələrdən olan Qaradağlı soyqırımı 1992-ci il fevralın 17-də Xocavənd rayonunun Qaradağlı kəndində Ermənistan silahlı qüvvələri və Rusiyanın 366-cı alayı tərəfindən törədilib.**

## II yazı

Məlum olduğu kimi, erməni silahlı birləşmələri yalnız dörd gün çəkən ağır döyüşdən sonra kəndə daxil ola biliblər. Kənd Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunaraq yandırılıb. Xocavənd rayonunun azərbaycanlılar yaşayan kəndlərinin işğal tarixləri və digər faktlar sübut edir ki, dinc əhali öz doğma torpaqları uğrunda sona qədər mübarizə aparıb, son nəfəsə qədər döyüşüb. Düşmənin hərbi qüvvələri ilə qeyri-bərabər döyüşlərdə mərdlik, şücaət göstərmiş yerli əhali təklənməsinə, köməksiz qalmasına baxmayaraq, vətən uğrunda 5 ildən artıq düşmənə qəhrəmanlıqla müqavimət göstərib. Təxribatların 1988-ci ilin fevralından başladığını, Tuğ, Saləkətin kəndlərinin 30 oktyabr 1991, Xocavəndin özünün 19 noyabr 1991, Naxullunun 10 yanvar 1992, Qaradağlının 17 fevral 1992, Muğanlı, Əmirallar, Kuropatkinonun 2 oktyabr 1992, Xətainin 20 avqust 1993, Günəşlinin 23 avqust 1993-cü ildə işğal olunması deyilənləri sübut edir.

Qaradağlı kəndi Xankəndi və Xocavənd şəhərlərini birləşdirən asfalt yolun üstündə, 14 erməni kəndinin əhatəsində yerləşmiş və 800 evdən ibarət olan böyük bir azərbaycanlı kəndi idi. Sovet hakimiyyəti dövründə kəndin qonşuluğundakı Vərəndəpi, Bəhrəmli və Xanlıq adlı kəndlərin azərbaycanlı əhalisi köçməyə məcbur edilib, onların torpaq sahələri isə erməni kəndlərinə verilmişdi.

Tarixçilər qeyd edirlər ki, Çar Rusiyası dövründə və sovet hakimiyyəti illərində ermənilər Dağlıq Qarabağın azərbaycanlı əhalisinə, o cümlədən, Qaradağlı sakinlərinə qarşı müxtəlif təxribatlar törədiblər. Belə təxribatlardan biri 1967-ci ildə baş verib. Məlumatlara görə, həmin ildə milli münaqişə yaratmaq üçün ermənilər üç nəfər azərbaycanlıya, əslən Qaradağlıdan olan şəxslərə böhtan ataraq onları həbs etdiriblər. Onlar məhkəmədə bəraət almalarına baxmayaraq, erməni quldurları günün günorta çağı Xankəndidə, sovet əsgərlərinin gözü qarşısında həmin günahsız insanların üstlərinə benzin töküb yandırıblar.

Sovet dövründə Qaradağlı kəndi bir müddət bura sonradan köçüb gələn ermənilərin yaşadıqları Qağarza və Baravat kəndləri ilə eyni bir kolxozda birləşdirilib. Kolxozun bütün rəhbər işçiləri ermənilərdən təyin edilirdi. Ermənilər daim Qaradağlıların hüququnu tapdalayır, kəndin rəhbərliyinə yaxın buraxmır, əməkhaqlarını mənimsəyirdilər. 1971-ci ildə qaradağlılar hökumət qarşısında erməni kəndlərindən ayrılmaq, müstəqil kolxoz yaratmaq məsələsini qoyaraq məqsədlərinə nail olublar. Həmin ildən Qaradağlı camaatı ayrılaraq Nərimanov adına kolxoz təsərrüfatında birləşib. Ayrılma zamanı Xocavənd rayonunun erməni rəhbərləri əvvəlki kolxozun ümumi əmlakından Qaradağlıya heç bir pay verməyiblər. Hətta qaradağlılara dədə-baba torpaq sahələrindən istifadəyə belə imkan verilmirdi. Nəhayət, gərgin mübarizə nəticəsində onlar müəyyən qədər əmlak payı, o cümlədən, Nərgiztəpə deyilən yerdən 100 hektar əkinə yararlı torpaq sahəsi ala bildilər. Bu sahə kənddən 30 kilometr aralı olsa da, kolxozun inkişafında mühüm rol oynamışdı. Müstəqil fəaliyyətinin beşinci ilində Nərimanov adına kolxoz Xocavənd rayonunda ən qabaqcıl təsərrüfatlardan birinə çevrilir.

Xocavənddə 1988-ci il fevral ayının 12-də keçirilən iclasın, həmişə olduğundan fərqli olaraq, ancaq erməni dilində aparılması, Azərbaycan dilində danışmağa imkan verilməməsi, iclasdan sonra ermənilərin azərbaycanlılara qarşı təhqiramiz fikirlər səsləndirməsi, əllərində Azərbaycan dövləti əleyhinə şüarlar tutmaları, səhəri günü Xankəndidə keçirilmiş fəallar yığıncağında da ermənilərin eyni hərəkətləri etməsi Qarabağın bütün azərbaycanlı əhalisini, o cümlədən, qaradağlıları da narahat etməyə başlamışdı. Bundan sonra Xankəndidə və Qarabağın ermənilər yaşayan bütün şəhər və kəndlərində millətçi nümayişlər və mitinqlər başlandı.

Tarixçilər yazırlar ki, bundan dərhal sonra Qaradağlı kəndinin bir qrup sakini Ağdama gedərək rayon rəhbərliyinə erməni təxribatları haqqında Bakıya məlumat verilməsini və ciddi tədbir görülməsini tələb edir. Onlar, həmçinin, erməni təxribatları haqqında Azərbaycan və SSRİ rəhbərlərinin ünvanına yazılı müraciətlər də göndərirlər. Lakin rəhbərlik təxribatların qarşısını almaq əvəzinə, qaradağlıların şikayət məktublarını tədbir görmək üçün vilayətin erməni rəhbərlərinə göndərir ki, bu da onların vəziyyətini daha da ağırlaşdırırdı. Respublika rəhbərliyi tərəfindən Qarabağın digər azərbaycanlı əhalisi kimi taleyin hökmünə buraxılan qaradağlılar özləri acınacaqlı vəziyyətdən çıxış yolunu axtarmağa məcbur olmuşlar. Kəndin nüfuzlu şəxslərindən rayonun Tədarük İdarəsinin rəisi Məzahir Ağalarov, Xocavənd rayonunun icra hakimiyyəti orqanlarında işləmiş yeganə azərbaycanlı Nüsrət Əzizov, kənd məktəbinin direktoru Nobil Zeynalov, Cahid Məmmədov, Soltan Bayramov Qaradağlını erməni təxribatlarından qorumaq üçün bəzi tədbirlər görməyə başlayırlar. Bunlardan biri də özünümüdafiə dəstələrinin yaradılması idi.

Tarixçilər bildirirlər ki, kəndin belə ağır vəziyyətində əslən Qaradağlıdan olan, Sovet ordusunda zabit kimi xidmət edən baş leytenant Ədalət Məmmədov 1988-ci il mart ayında həmkəndlilərinin müraciətinə cavab olaraq öz doğma kəndinə qayıtdı. Kəndin müdafiəsinin təşkilində Ə.Məmmədova kənd məktəbində hərbi hazırlıq müəllimi, ehtiyatda olan zabit Telman Tağıyev, Məmməd Məmmədov, Məhəmmədəli Bayramov və digər vətənpərvər insanlar yaxından kömək etmişdilər. Qaradağlıda Ağalar Məmmədovun könüllü müdafiə dəstəsinin yaradılmasında mühüm rolu olub. Onun təşkil etdiyi özünümüdafiə dəstəsinin Ə.Məmmədovun sərəncamına keçməsi kənddə müdafiə batalyonunun yaradılmasına yaxından kömək etdi. Kəndin könüllüləri hərbi hazırlıqlara başlasalar da, kəndi müdafiə etmək üçün silahın olmaması ciddi çətinliklər yaradırdı. Dağlıq Qarabağda erməni təxribatları başladıqdan sonra, 1988-1989-cu illərdə rəsmi strukturlar Qaradağlı kəndində üç dəfə silahyığma əməliyyatı keçirir, əhalidə olan adi ov silahları belə tamamilə müsadirə edilir. Vəziyyətdən çıxmaq üçün qaradağlılar ətraf rayonlarda yaşayan dostlarına, tanışlarına müraciət edirdilər, onlar da müəyyən qədər ov tüfəngi taparaq Qaradağlının müdafiəçilərinə göndərirdilər.

Tədqiqatlarda qeyd edilir ki, münaqişə başlanandan bir neçə ay sonra Azərbaycan rəhbərliyi gec də olsa Qaradağlının problemləri ilə maraqlanmağa başladı. O zaman Qaradağlının ətraf erməni kəndləri və rayon mərkəzi ilə əlaqəsi kəsilmiş, işləyənlər işdən qovulmuşdular. Problemi həll etmək üçün kənddə çörək sexi, mağazalar, yeməkxanalar fəaliyyətə başladı. Qaradağlıda Bakı şəhəri 1 saylı tikiş fabrikinin və Gəncə Xalça Zavodunun sexləri, Bakı soyuducular zavodunun filialı açıldı. Bundan başqa, məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi və xəstəxana binalarının inşasına başlanıldı. Gənc ailələrə ayrılmış həyətyanı torpaq sahələrində 60-a qədər yeni evlər tikildi. Bundan başqa, Qaradağlının müdafiəsi ilə də bağlı müəyyən işlər görüldü. Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 30 nəfər Qaradağlı gəncini milis işçisi kimi işə qəbul edərək kəndin müdafiəsinə göndərməsi, Ağdamdan polis əməkdaşlarının növbə ilə Qaradağlıya ezam edilməsi kəndin müdafiə gücünü bir qədər artırmışdı.

Erməni hücumlarının başlanması qaradağlıların rahatlığını yenidən pozmağa başlayır. Tədqiqatçılar qeyd edirlər ki, 1989-cu ilin ortalarından başlayaraq ermənilərin Qaradağlı kəndinə qarşı təxribatları getdikcə daha da gücləndi. Həmin il oktyabr ayının 12-də bir dəstə erməni qulduru kəndin yaxınlığındakı mal fermasına basqın edərək mal-qaranı ələ keçirib, ferma binasını və ot tayalarını yandırıb. Kəndin müdafiəçilərindən Ə.Məmmədov, F.Tağıyev, Q. Mustafayev, N.Vəliyev özünü hadisə yerinə yetirərək çətinliklə də olsa quldurları geri oturda bilmişlər. 1989-cu ilin dekabrında kənd əhalisini vahiməyə salmaq və onları qaçmağa məcbur etmək üçün ermənilər hər axşam yanacaqla dolu alovlanan çəlləkləri ətraf dağlardan aşağı buraxmağa başlamışdılar.

Müdafiəçilərin gördükləri tədbirlər nəticəsində ermənilərin bu vəhşiliklərinin də qarşısı alındı. 1990-cı il yanvarın 15-də 20 nəfərə qədər silahlı erməni Qaradağlıya yaxınlaşıb kəndin kənarındakı evləri atəşə tutub. Özünü hadisə yerinə çatdıran müdafiəçilər ilk açıq silahlı döyüşə girərək düşməni geri oturdublar. Erməni quldurları 10 aprel 1990-cı il tarixdə yenidən kəndə hücüm etmişlər. Atışma zamanı kənd sakini İlqar Əliyev ağır yaralanmışdı.

1990-cı il noyabr ayının 24-də saat 17.00 radələrində Qaradağlıdan Ağdama gəlin aparan maşın karvanı kəndin 5 kilometrliyində rus hərbi paltarı geymiş erməni quldurlarının təcavüzünə məruz qalmış, həmin hadisədə 3 nəfər qaradağlı həlak olmuşdu. Quldurlar hadisə yerini mühasirəyə alaraq meyitləri aparmağa gələnləri irəli buraxmır, respublikamızın o vaxtkı rəhbəri Ayaz Mütəllibovun gəlməsini tələb edirdilər. İki saatdan sonra, çətinliklə də olsa, camaat meyitləri erməni quldurlarının əlindən ala bilmişdi.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidmətləri Azərbaycandan gedən Gürcüstan vətəndaşında virus aşkarlanması barədə birgə məlumat yayıb.

# Gürcüstanda koronavirusdan şübhə doğuran şəxsin Azərbaycandan sağ-salamat keçib getdiyi aydınlaşdı



"Trend"ə daxil olan məlumatda bildirilir ki, fevralın 25-də İran İslam Respublikasından gələn və Azərbaycan ərazisindən keçərək Tbilisiyə getmiş Gürcüstan vətəndaşında COVID-19 virusunun aşkarlanması haqda məlumat əsasında Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi müvafiq dövlət qurumları ilə birlikdə dərhal araşdırma aparıb.

Araşdırma zamanı həmin şəxsin gömrük nəzarətindən keçməsini əks etdirən kadrlar ciddi təhlil edilib və Astara gömrük-keçid məntəqəsindəki yoxlama anında onun hərarətinin norma daxilində olduğu müəyyənləşdirilib, səhhətində şübhə doğuran əlamətlərin qeydə alınmadığı aşkar edilib.

Mümkündür ki, xəstəliyin xarakterinə uyğun olaraq Astara gömrük-keçid məntəqəsindən Gürcüstan sərhədinə qədər məsafənin qət edildiyi 10-12 saat ərzində xəstəliyin əlamətləri üzə çıxıb. Belə ki, virusun inkubasiya dövrü 14 günə qədərdir və həmin müddətdə xəstəliyin simptomları gizli qala bilər.

Açıqlamada deyilir ki, göstərilən faktla bağlı bütün tədbirlər görülür. Dövlət sərhədini keçmiş Gürcüstan vətəndaşları ilə təmasda olan şəxslər, o cümlədən gömrük, sərhəd, tibb işçiləri müəyyənləşdirilib və onlar tibbi nəzarətdədir.

Azərbaycandan tranzit keçməklə İran İslam Respublikasından Gürcüstana gedən Gürcüstan vətəndaşında koronavirus aşkarlanması ilə bağlı Dövlət Gömrük Komitəsi (DGK) də məlumat yayıb.

DGK-dən baki-xeber.com-a bildirilib ki, həmin şəxs fevralın 25-də saat 06:50-də Cənub Ərazi Baş Gömrük İdarəsinin Astara gömrük-keçid məntəqəsi vasitəsilə ölkə ərazisinə gəlib və təlimata uyğun şəkildə inzibati binaya daxil olmadan və binanın içərisində portativ termometrlərlə, daha sonra isə stasionar termovizorla yoxlanılıb. Yoxlama zamanı onun hərarətinin norma daxilində olduğu müəyyənləşdirilib, səhhətində şübhə doğuran əlamətlər qeydə alınmayıb. Həmin vətəndaş fevralın 25-də saat 17:09-da Qərb Ərazi Baş Gömrük İdarəsinin "Qırmızı Körpü" gömrük postu vasitəsilə ölkəni tərk edib.

Onu da qeyd edək ki, Gürcüstan kütləvi informasiya vasitələrində yayılan məlumatlardan da aydın görünür ki, xüsusi laboratoriyada aparılan müayinə və analizlərdən sonra həmin şəxsin virus daşıyıcısı olduğu müəyyən edilib.

Hazırda həmin şəxslə təmasda olan əməkdaşlar müəyyənləşdirilərək müşahidə altına alınıb.

Bu arada Dövlət Sərhəd Xidməti Gürcüstanla sərhədin bağlanması ilə bağlı yaranmış narahatlıqlara aydınlıq gətirib.

DSX-dan verilən açıqlamada bildirilir ki, Azərbaycan-Gürcüstan sərhədində sərhəd-keçid məntəqəsinin bağlanması ilə bağlı yayılan məlumat həqiqəti əks etdirmir.

Məlumatda o da qeyd olunur ki, hazırda sərhəddə gediş-gəlişə məhdudiyyət qoyulmayıb: "Hələ ki, bu məsələ ilə bağlı hər hansı bir qərar yoxdur. Əgər belə bir qərar olarsa, bu barədə ictimaiyyətə məlumat veriləcək".

Bakıdan Gürcüstana yollanan avtobusların gediş-gəlişində heç bir məhdudiyyət yoxdur. Bu barədə "Trend"ə Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin (DANX) mətbuat katibi Nuridə Allahyarova bildirib. Onun sözlərinə görə, iki ölkə arasında olan sərhəddə yaranmış məhdudiyyət barədə quruma məlumat daxil olmayıb:

"Dövlət Avtomobil Nəqliyyatı Xidmətinə belə bir məlumat daxil olmayıb. Əgər avtobusların gedişgəlişində hər hansısa məhdudiyyət yaranarsa, bu barədə sərnişinlərə bildiriləcək".

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən də agentliyə hər hansı bir məhdudiyyətin olmadığı bildirilib: "Bu günədək sərnişinlər arasında koronavirusa yoluxma halı qeydə alınmayıb. Sərnişinlərdən xahiş olunur ki, əgər onlar özlərində narahatlıq hiss edərlərsə, qızdırma, tənəffüs yollarında problem yaranarsa, qatar bələdçilərinə müraciət etsinlər".

**2019**-cu ilin son ayında Çinin Uhan şəhərində görünən koronavirus (COVİD19) dünyaya yayılmaqda davam edir. Dünyada virusdan ölənlərin sayı 2 min 801-ə çatıb, yoluxanların sayı isə 82 mini keçib.

# Dəhşətli virus dünyanı bürüdü - Çindən sonra ən sürətlə yayıldığı iki ölkə - İran və İtaliya, Tehranda virusa yoluxan rəsmilərin sayı 3-ə çatdı, xəstəliyini deyənlərə 1400 dollar mükafat...




Virusun Çindən sonra ən sürətlə yayıldığı iki ölkə İran və İtaliyadır. Hər iki ölkədə virus aşkarlandıqdan sonra Yaxın Şərq və Avropa böyük təhlükə ilə üzləşib. Yaxın Şərq ölkələrində görülən virusun qaynağının İran, Avropada yayılan virusun isə səbəbinin İtaliya olduğu bildirilir.

İtaliyada ölənlərin sayı 14-ə çatıb. Ukrayna Xarici İşlər Nazirliyi bir Ukrayna vətəndaşının da İtaliyada koronavirusa yoluxduğunu açıqlayıb. Koronavirus diaqnozu qoyulan başqa bir nəfər də Yaponiyada ölüb və bununla ölkədə ölənlərin sayı 8-ə çatıb. İngiltərədə virusa yoluxanların sayı 15-ə yüksəlib.

İranda da ölənlərin sayı artır. Ən son məlumatlara görə, ölənlərin sayının 26-ya, yoluxanların isə 245-ə çatdığı açıqlanıb. Virus ölkənin 18 əyalətinə yayılıb. İran Çindən sonra ən çox ölümlərin olduğu ikinci ölkədir... Ancaq İran rəhbərliyi karantinin tətbiq edilməsinə qarşı çıxır. İran prezidenti Həsən Ruhani heç bir şəhər və ya bölgədə karantin elan etməyəcəklərini deyib.

Qeyd edək ki, İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komitəsinin sədri Mojtaba Zolnuri də yeni koronavirusa yoluxub. Bu barədə koronavirusun İranda ən çox yayıldığı Qum şəhərindən millət vəkili olan komitə sədri açıqlama verib.

Baki-xeber.com xarici mediaya istinadən xəbər verir ki, M.Zolnuri koronavirusla əlaqədar verdiyi analizlərin nəticəsinin pozitiv çıxdığını bildirib.

Zolnuri hazırda karantində olduğunu, heç bir narahatlığın olmadığını da sözlərinə əlavə edib. Eyni zamanda İranın Qadın və ailə məsələləri üzrə vitse-prezidenti Məsumə Ebtekar da koronavirusa yoluxub.

Bundan əvvəl isə İranın səhiyyə nazirinin müavini və koronavirusla mübarizə komitəsinin katibi İrəc Hərirçi də virusa yoluxub.





Küveytdə virusa yoluxanların sayı 43-ə çatıb. Küveyt Səhiyyə Nazirliyinin sözçüsü ölkədəki virus hallarının yaxından araşdırıldığını, epidemiyanın yayılmasının qarşısını almaq üçün təcili planlar hazırlandığını deyib. Eyni zamanda qonşu Gürcüstanda da ilk koronavirus hadisəsi təsdiqlənib.

ABŞ-ın Kaliforniya ştatında isə mənşəli müəyyən edilməmiş yeni bir virus aşkar edilib. ABŞ Xəstəliklərə Nəzarət və Profilaktika Mərkəzi COVİD19-un xaricdə olmamış və ya heç bir xəstə ilə təmasda olmamış şəxsdə görüldüyünü bildirib. Mərkəzin açıqlamasında bu xəstəliyin əhali arasında nəzarətsiz yayıldığının bir əlaməti ola biləcəyinə daur xəbərdarlıq edilir. Bununla ABŞ-da koronavirusa yoluxanların sayı 60-a çatıb. Ölkədə əvvəllər aşkarlanmış 59 COVİD19 hadisəsində xəstələrin hamısı xaricə gedən və ya xaricə gedənlərlə sıx əlaqədə olanlar olub.

Dünyanı böyük təhlükəyə atmış virusun mənbəyi olan Çinin bəzi bölgələri isə koronavirusla fərqli yollarla mübarizə aparır. Çinin Hubey əyalətində bir milyon insanın yaşadığı Qianjiang şəhərində bu günə qədər 197 koronavirus yoluxması aşkarlanıb. Virusun yayılmasının qarşısını almaq üçün şəhər rəhbərliyi pul mükafatı kimi metodlardan istifadə edir. Şəhərdə koronavirus tutduğunu bildirənlərə 1400 dollar mükafat veriləcəyi elan edilib Sözügedən pulu almağın yeganə şərti xəstəxanaya müraciət edən şəxsdə koronavirusun təsdiqlənməsidir.

# Qeyri-neft sektoru ixracından Azərbaycana gələn valyuta...

**İqtisadi sferada hökumət qarşısında duran əsas məsələlərdən biri də idxal məhsullarını tədricən yerli istehsalla əvəzləməkdir. Eyni zamanda, buna paralel olaraq qeyri-neft sektoru üzrə ixrac həcminin genişləndirilməsi də xüsusi diqqət mərkəzində yer alır.**

Ötən dövr ərzində Azərbaycan bu istiqamətdə mühüm nailiyyətlərə imza atmağı bacarıb. Belə ki, 2019-cu ildə Azərbaycan qeyri-neft sektoru üzrə 1,954 milyard dollar dəyərində mal ixrac edib. Bu, 2018-ci illə müqayisədə 15,7 faiz çoxdur.

Ümumiyyətlə, araşdırmalar göstərir ki, son 16 ildə xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artıb. 2017-ci ildə qeyri-neft ixracı 24 faiz, 2018-ci ildə 10 faiz, 2019-cu ildə isə 15,7 faiz artıb. Müxtəlif ölkələrdə yaradılan ticarət evləri, ticarət nümayəndələri, ixrac subsidiyaları, ixrac missiyaları, beynəlxalq sərgilərdə iştirak və digər bu kimi dəstəkləyici tədbirlər öz nəticəsini verir. Ölkədə qəbul edilən strateji yol xəritələrinə əsasən, qeyri-neft sektoru üzrə ixracın hazırda adambaşına 200 dollardan 2025-ci ildə ən azı 450 dollara qaldırılması nəzərdə tutlur. Belə vəziyyət o deməkdir ki, bu il də daxil olmaqla, Azərbaycan qeyri-neft ixracını illik 15 faiz artırmalıdır ki, hədəfinə çatsın.

Ekspertlər bildirir ki, qeyri-neft ixracının artımı iqtisadi təhlükəsizlik və makro sabitlik üçün strateji əhəmiyyət daşıyır. Bu həm də postneft dövrünün əsas tələbləri sırasında yer alır. Qeyd edilən fonda turizm, aqrobiznes, nəqliyyat-logistika, neft-qaz kimyası, informasiya texnologiyaları kimi sahələrin inkiaşfına artıq daha çox diqqət yetirilir.

Digər tərəfdən, müəyyən strateji məhsullar üzrə idxal asılılığının minimal həddə endirilməsi də əsas prioritetlərdən biri qismində müəyyən olunub. Məsələn, buğda idxalı sahəsində asılılığın aradan qaldırılması istiqamətində atılan addımlar buna sübutdur. Hesablamalar göstərir ki, cari ilin yanvar ayında Azərbaycan 10,953 milyon dollar dəyərində 49 952 ton buğda idxal edib.

Bu, ötən ilin eyni ayı ilə müqayisədə 12,738 milyon dollar və 59 703 ton azdır. Hesabat dövründə buğda idxalı Azərbaycanın ümumi idxalının 1,5%-ni təşkil edib. Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə bildirir ki, idxalın azalmasının əsas səbəbi 2019-cu ildə ölkədə taxıl ehtiyatlarının formalaşdırılmasıdır:"Belə ki, respublikamızda yerli taxıl istehsalı 6 faizdən çox artıb. Eyni zamanda, buğda idxalı da ötən il 1 milyon tondan 1,5 milyon tonadək artıb. Çünki 2018-ci ildə dünya bazarında taxılın qiyməti bir az baha idi, ona görə də sahibkarlar yerli ehtiyatlardan daha çox istifadə ediblər. 2019-cu il mövsümündə isə dünya bazarında qiymətlər əlverişli olub. Xüsusilə də Rusiyada məhsul yığımı dövründə qiymətlərin əlverişli olmasına görə sahibkarlar öz ehtiyatlarını yenidən idxal mənbələri hesabına, həmçinin yerli istehsal hesabına tam formalaşdırıblar. Ona görə də bu ilin yanvar ayında Azərbaycanın buğda idxalı azalıb.



Nəzərə alaq ki, qlobal olaraq quraqlığa görə taxıl üzrə əsas ixracatçı ölkələrdə istehsalda problem var. Bizdə də quraqlığa görə məhsuldarlıqda qeyri-müəyyən gözləntilər var. Amma bunun müqabilində bizim taxıl ehtiyatlarının tam olaraq formalaşması müsbət bir məqamdır. Hazırda Azərbaycanın taxıl ehtiyatları kifayət qədərdir".

Azərbaycanın növbəti illərdə buğda idxalını azaltması məsələsinə toxunan F.Fikrətzadə qeyd edib: "Region ölkələri arasında taxıl istehsalında bizim müqayisəli üstünlüklərimiz çox yüksək deyil və tələbatımıza uyğun torpaq resurslarımız da kifayət deyil. Yəqin ki, bizim buğda idxalının tam dayandırılmasından yox, minimallaşdırılmasından söhbət gedə bilər. Bizim hesablamalara görə, buğda idxalını illik təxminən 700-800 min tona qədər azaltmaq olar.

Yerli istehsalın artan xətt üzrə davam etməsinə baxmayaraq, buğda istehsalını 2,1 milyon tondan hətta 3 milyon tonadək çatdırsaq da, yenə təxminən 700-800 min ton buğda idxalına ehtiyacımız olacaq. 2019-cu il mövsümündə 2018-ci ilə görə dünyada taxıl qiymətləri əlverişli olub. Amma yaz qabağı məhsul yığımında quraqlığa görə taxıl üzrə əsas ixracatçı ölkələrdə bir az azalmalar gözlənilir.

Hazırda dünya bazarında buğdanın qiyməti əlverişlidir, ötən illə eyni səviyyədədir və ya ondan aşağıdır". Yerli istehsal həcminin artması, ümumiyyətlə, qarşıdakı dövr ərzində buğda idxalının həcminin azalmağa doğru gedəcəyini göstərir. Əvəzində isə bir sıra strateji məhsullar üzrə ixrac artır. Məsələn, pambıq sahəsində Azərbaycan ixrac həcmini artırır və bundan daha çox valyuta əldə edir.

**Bir sıra kənd təsərrüfatı məhsulları, məsələn, pomidor, fındıq və digərləri üzrə də ixrac həcmi sürətlə ratır. Bunlar nəticə etibarıilə Azərbaycanın qeyri-neft sektorunun ixrac həcminin artımına da ciddi təkan verir. Ümumiyyətlə, cari il ərzində qeyri-neft məhsullarının ixrac həcminin 2,5 milyard dolları keçməsi gözlənilir. Özü də Azərbaycanın ixrac etdiyi malların çeşidi də artır. Elə bu ilin yanvar ayında Azərbaycandan 1 073 adda mal ixrac olunub. Bu da illik müqayisədə 10,8% mal çeşidinin çox olması deməkdir. .**

***Ramil QULİYEV***

# İbtidai protohay sürüsünün səhra həyatı...

**XIX əsrdə yaşamış Böyük Britaniyadan olan misirşünas arxeoloq Uilyam Metyu Flinders Pitri (1853-1942, "misir arxeologiyasının atası") e.ə. XIV yüzillikdə yaşamış XVIII nəsil Misir fironu Exnatonun (IV Amenxotep) şahzadəsi Nefertitinin (e.ə.1370-1330-cü illər) gözlərinin baxışına, dodaqlarının yapışıqlığına və burnunun quruluşuna görə erməni mənşəli olduğunu bildirmişdi.**

**(XV məqalə)**

Xristianlığa qədərki dövrdə kahinlərin ilkin-ibtidai ibadət ocaqlarının, dini ayin və mərasimlərinin keçirildiyi çoxsaylı məbədlərin yayıldığı qədim Misir (şimali-şərqi Afrika) ərazisinin həm də əski insan yaşayış məskənləri ilə qonşuluğu bu yerlərin məskunlaşmasını sürətləndirmiş, müxtəlif təbii, ictimai və sosial (özgür qəbilə-tayfa xüsusiyyətlərinin) amillərin təsiri ilə e.ə. IV-II minilliklərdə bu proses daha da intensivləşmişdi (əvvəlki yazılarımızda bu barədə ədəbiyyat materiallarına istinad olunduğu kimi).

Qədim Misir hüdudlarında (bu baxımdan, xüsusilə Böyük Səhranın (Saxaranın) şərq hissəsinə bitişik, Qırmızı dənizin qərb sahilləri, Nil çayının yuxarı hövzələri və aşağı keçidləri) ibtidai insan sürülərinin (o cümlədən protohay mənşəli) yurdlanmasına ilk növbədə təbii proseslərin intensivliyi təsir etsə də, əmək bölgüsündə yığıcılığı əvəzləyən əkinçiliyin və heyvandarlığın təşəkkülü və genişlənməsi amili də istisnalıq təşkil etməyib. Eləcə də təbii proseslərin dağıdıcı təsirindən qorunmaq instinktinin artması ilə yanaşı, ilkin ibtidai toplum olaraq toparlanmaq naminə ibadətlərin və mərasimlərin davamlı keçirilməsi zəruriliyi də bu prosesdə böyük rol oynayıb.

Xüsusilə kəskin relyefiqlim təbəddülatlarına məruz qalan protohay sürüləri Həbəşistan dağlıq yaylasının mağaralarında və Omo çayı hövzəsində, Amxara vadisi meşələrində yırtıcı vəhşi heyvanların hücumundan qorunmaq üçün, yerli qəbilətayfa birliklərinin qanlı toqquşmalarından qurtulmaq və təhlükəsiz ərazilər axtarmaq naminə hətta səhra landşaftının ekstremal təsir imkanlarınına da uyğunlaşa bilib e.ə. IV-III minilliklərdə.

İbtidai protohay insan sürülərinin məhz bu səbəbdən ümumilikdə qədim Misir ərazisində, ayrı-ayrılıqda Nubiya və Ərəbistan səhraları hövzələrində, Nil çayının IV-II keçidlərində (səhra vadi-vahələrində, quru çay yatağı hövzələrində, qayalıqdağlıq landşaftının oyuqlarında, Nil çayının subasar vadilərində, Böyük səhraya bitişik vahələrdə...) məskunlaşması sonrakı dövrlərdə onların kökənli xalqlarla, hərbi-siyasi təsirə malik olan birliklərlə, qədim Misir dövlətinin (sonrakı minilliklərdəyüzilliklərdə Yaxın Şərq ölkələrinin - Finikiya, Fələstin, Suriya, Babil..., Aralıq dənizi hövzəsi dövlətlərinin- Kipr, Yunanıstan..., Ərəbistanın, Hindistanın) istimai-siyasi və sosial həyatı ilə sıx qaynayıb-qarışmasına imkan yaradıb. Hay sürülərinin Şimali Afrikanın yerli xalqları, qəbilə-tayfa icmaları ilə intensiv qarşılıqlı münasibətlərinin yaranması və inkişaf etdirilməsində protohayların psixioloji-instinkt, genetikmorfoloji və bioloji xüsusiyyətlərinin ("bacarıqları") də (inadlı-məqsədli olmaları, hər bir işdən yararlanma həvəsinin güclü olması...) təsiri az olmayıb. Bu baxımdan təsadüfi deyil ki, hay sürülərinin coğrafi məkan-əski yaşayış izlərinə Şimal və Şərqi Afrikada, qədim Həbəşistan, Misir, Sudan ərazilərində rast gəlinməsi bir sıra qədim və müasir arxeoloji tədqiqatlarla üzə çıxarılmaqla, həm də əski arxiv materiallarında, eləcə də akademik-tədqiqat nəşrlərində geniş əks olunmaqdadır.

Qədim Misir dövləti ərazisində və Böyük Səhra vahələrində (quru çöl vadilərində) çoxsaylı qəbilə-tayfa icmaları daxilində assimilyasiya olunan protohay sürüləri ayrı-ayrı qruplar, qəbilələr halında olsa da ilkin genetik irs və sonradan qazanılmış morfoloji irq xüsusiyyətlərinə uyğun Şimali və Şimal-Şərqi Afrika hüdudlarında yayılıb.

Keçən əsrdə bir sıra hay müəlliflərinin əsərlərində də (A.Xaçaturyan "Qədim Ermənistanın gil yazılı dövrü", İrəvan şəhəri, 1933; M.Qavukçyan "Urartu hay-erməni adlarının yaranması", Beyrut şəhəri, 1973; "Qədim Şərq tarixi", Moskva şəhəri, 1988, II cild...) bu barədə ətraflı tarixi-coğrafi məlumatlar verilir.

2017-ci ilin əvvəllərində Karen Daduryan və Narişe Karamyan Misir Ərəb Respublikasının Matrux vilayətinin Kattar vadisinin Suva vahəsində (Liviya sərhədindən 50 km şərqdə, Aralıq dənizindən 350 km cənubqərbdə) ümumi əhalisinin sayı 23 000 nəfər olan bölgənin tasiuit dialektində danışan qəbilələri arasında etnoqrafik-tarixi araşdırmalar apararaq nəticəyə gəliblər ki, onların nitq elementləri əski hay dilinin fonetikası ilə uyğunluq təşkil edir. Hay mənşəli tədqiqatçılar bu tapıntıdan ruhlanaraq axtarışlarını davam etdirməklə ərazidə (vadidə) Misir fironlarının XVI sülaləsinin məskunlaşdığını, burada qədim Amon allahının məbədinin inşa edildiyinə, hətta e.ə. 331-ci ildə Makedoniyalı İsgəndərin hərbi yürüşlərinin bu ərazidən Ərəbistan yarımadasına keçdiyinə, anik sərkərdənin məbəddə dini ayinləri icra etdiyinə dair məlumatları həvəslə arxiv materiallarl və gil lövhələrin yazıları əsasında toplaya biliblər.

Və müəyyən olunub ki, Fironların XVII sülaləsinə aid III Amenxotepin (e.ə.1455-1419-cu illər) arvadı şahzadə Teye (Berlin şəhərindəki Misir muzeyində onun sarkofaq əksi saxlanılır) Axmima şəhərindən olmaqla, anası Mina məbədinin kahini kimi əski protohay qəbilələri ilə qan qohumluğuna malik imiş.



Qədim Yunan tarixçilərifilosofları Herodotun (e.ə. 484-425-ci illər) "Tarix. IX kitab" (Leninqrad (Sankt-Peterburq) şəhəri, "Elm" nəşriyyatı, 1972-ci il, Q.A.Stratanovskinin tərcüməsində), "Yunan-İran müharibələrinin tarixi" əsərlərində frakiyalılarin bir qolu olan ermənilərin Asiyaya (Fərat və Dəclə çayları hövzəsinə) miqrasiyasının tarixi-coğrafi xüsusiyyətləri, Aristotelin (e.ə. 384-322-ci illər) "Əsərləri" (4 cilddə, Moskva şəhəri, 1975-1983-cü illər) kitabında Makedoniyalı İsgəndərin nizami-döyüş dəstələrinə xidmət göstərən əsirlərin içərisində həbəş, misir qəbilə-tayfa üzvlərinin (protohay qəbilə-tayfa icmalarının) olduğu, Siciliyalı Diodorun (e.ə. 90-30-cu illər) "Tarixi kitabxana" traktında Troya müharibəsində (e.ə. 1260-1184-cü illər ərzində) iştirak edən silahlı həbəş-misir dəstələrinin (protohay mənşəli döyüşçülərin) iştirakı bildirilib.

Bu məlumatlardan iftixar hissi keçirən hay müəllifi, İrəvan Dövlət Tarix muzeyinin baş elmi işçisi A.Teryan "Mitanni: Qədim erməni dövləti" əsərində (İrəvan şəhəri, 2006-cı il) fəxrlə hay döyüşçülərinin Yunan-Bizans ordusunda qulluq etdiklərini xüsusilə vurğulayıb. Həmin orduya daxil olan hay əsillilər məhz e.ə. minilliklərdə qədim Misir dövlərində məskunlaşan (Promoteylər sülaləsinin dövründə, e.ə. I minillikdə) protohay qəbilə-tayfa üzvlərinin törəmələri olublar.

Böyük Səhranın şərq hissəsində, Qədim Misir dövləti ilə həmsərhəd olan ərazilərdə e.ə. II minillikdə yaşayan qaramant qəbilətayfa birlikləri haqqında "çox böyük xalq" (dövlət) nümunəsində ilk dəfə e.ə. V əsrdə Herodot yazılı məlumat verir. Arxeoloji tədqiqatlar sübut edir ki, bərəbər dili dialektində danışan bu tayfalar "mağara həbəşlərini ovlayanlar" kimi məşhur olublar. Onlar qədim Liviya yazısından istifadə ediblər, əlifbaları Finikiya əlifbasının dəyişdirilmiş variantı hesab olunur. Göründüyü kimi, tarixdə "mağara həbəşləri" adı altında Həbəş dağlıq yaylası və Amxara vilayəti hövzəsində köç edən qəbilə-tayfa icmaları arasında protohay sürülərinin də (tiqran, tiqr, tiqrau, hayasa, hayk...) olması qanunauyğun olduğundan, hay müəlliflərinin də inkar etmədiyi mülahizənin - qədim erməni əlifbasının Həbəş və Finikiya əlifbalarından "törədiyini" nəzərə alsaq, deməli qaramant tayfaları ilə ibtidai protohay insan sürüsünün genetik qan qohumluğu istisna deyil.

Belə ki, 1933-1934-cü illərdə məşhur arxeoloq və antropoloqlar D.Paçe və C.Sercinin başçılığı ilə İtaliya Coğrafiya Cəmiyyətinin ekspedisiyası Liviyanın şərqində Uzde-əl-Acale məntəqəsində (qaramantların mərkəzi şəhəri olub) Şimali Afrikanın nəhəng nekropolunu (4500-ə qədər qəbirləri) aşkar ediblər. Həmin qazıntılar nəticəsində tapılmış freskalarda (2 min il yaşı olan) həm də "mağara həbəşləri"nin ov səhnəsi, onların üz, alın, baş hissələrinin təsviri geniş yer tutub.

Daha sonra bu nəticələrdən ruhlanan tədqiqatçı Viktor Vaqanyan 12.09.2019-cu ildə "Armenia.IM" internt saytında (İrəvan şəhəri) "Qədim Misir və ermənilər" adlı məqalə dərc etdirib, ön söz kimi Troya müharibəsinin araşdırıcısı, alman arxeoloqu Henrix Şlimanın guya dediyi ifadəni seçib:"Avropanın faciəsi ondadır ki, onun sivilizasiyası yunan intibahına əsaslanır, əslində erməni mədəniyyəti olmalıdır".

Protohay sürülərinin əski üzvü kimi III minilikdə yaşayan bu canlı daha da irəli gedərək iddia edir ki, hay irqi eramızdan 10 000 il əvvəl Afrikada və Ön Asiyada yaşayıb, qədim Misir Allahları da hay mənşəli olub. Belə ki, Ra allahının sinonim adı hay mənşəli "Ar" sözündən, Amon allahı - Amen (Armen)-Mona sözlərindən, Osiris Ani allahı hay mənşəli olduğundan qədim erməni dövlətinin paytaxtı onun şərəfinə Ani şəhəri adlanıb, qaranlıq allahı Oanesin şərəfinə hayların Ovanes adı yaranıb, Allahların anası Mut və ya Anem də hay mənşəlidir...

Göründüyü kimi, hay tədqiqatçıları da sübut etməyə çalışırlar ki, Azərbaycan ərazisinə, xüsusilə Qərbi Azərbaycana köçürülən və hazırda orada yaşayan hayların ulu əcdadlarının-protohayların ilkin, əski mağara-vadi həyatları, etno-morfoloji, genetik-fizioloji bağlılığı Afrika qitəsi ilə, daha doğrusu Həbəşistan və Misir əraziləri, eləcə də orada yaşayan əski qəbilətayfalarla bağlı olub.

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

# Bir alim 15-20 dissertantın elmi rəhbəri ola bilərmi?

**Bu gün elmi iş müdafiə edib alim adı almaq, elmi titula sahiblənmək bir sıra insanların əsas hədəfidir. Onların müəyyən bir qismi həqiqi elm adamı olub elmə xidmət etmək istəsə də, xeyli bir qismi buna özlərini fərqləndirmək, gələcəkdə elmi müəssisələrdə müxtəlif vəzifələr tutmaq üçün vasitə kimi baxır.**



## *İdris Abbasov: "Elə bir vəziyyət yaranıb ki, alimlər arasında dissertanta və doktoranta elmi rəhbər olmaq üstündə dava gedir"*

Biz bunu onlarla söhbətimiz zamanı aydın şəkildə hiss edirik.

Onlarla paralel olaraq elmi rəhbər olmağa da maraq göstərənlər az deyil. Bu sahədə əsasən dekanlar, prorektor, rektor, elmi-tədqiqat institutlarının rəhbərləri xüsusilə diqqəti çəkirlər. Məsələ burasındadır ki, əksər hallarda, doktorant və dissertantlar da elmi rəhbər kimi elm və ali təhsil müəssisələrində yüksək vəzifələr tutan adamları seçirlər. Bunun da öz səbəbləri var və bu barədə keçən yazılarımızdan birində ətraflı danışmışdıq. Xatırladaq ki, əsas məqsəd vəzifəli şəxslərin köməkliyilə maneəsiz elmi iş müdafiə etməkdir.

Bu gün əsas problemlərdən biri bəzi hallarda bir şəxsin 10, bəzən 15-20 dissertanta, doktoranta elmi rəhbərlik etməsidir. Bunun isə elmi işlərin keyfiyyətli alınmasına əngəllər törətdiyi məlumdur.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, professor İdris Abbasov "Bakı-Xəbər"ə açıqlamasında faktı təsdiq edərək bildirdi ki, bu olduqca mənfi bir haldır. Elmdə belə halların yayıldığını təəssüflə qeyd edən İ.Abbasov vurğuladı ki, bu halın qarşısının alınması vacibdir: "Bir vəzifəli elmi rəhbərin 10, 15, hətta 20 nəfər dissertantı, doktorantı olur. Yəni bir nəfər 10 nəfərdən artıq doktoranta, dissertanta rəhbərlik edir. Təkcə bu fakt kifayətdir ki, bu sahədə böyük boşluq olduğunu deyək.

Yazılan dissertasiyaların da çoxunun səviyyəsi çox aşağıdır. Hətta deyim ki, lap rektor olmasın, ali məktəb müəllimi olsun, professor olsun, elmi-tədqiqat müəssisələrində baş elmi işçi olsun, fərqi yoxdur, bir adamın 10 dissertanta elmi rəhbərlik etməsi düzgün deyil. Bu həm də fiziki cəhətdən mümkün deyil. Bu, aldadıcı və formal bir prosesdir. Mən özüm bu işin içindəyəm. Mən özüm iki fəlsəfə doktoru yetişdirmişəm. İnanın ki, bu iki nəfərlə tədqiqat barədə müzakirələr aparmaq, onlara kitabxanalarda işləməklə bağlı tövsiyələr vermək, eləcə də digər proseslər çətin olub. Bu asan iş deyil. Əgər elmi rəhbərliyə və dissertantlara, doktorantlara ciddi şəkildə yanaşırıqsa, onlarla işləmək çətindir. Elə bir vəziyyət yaranıb ki, alimlər arasında dissertanta və doktoranta elmi rəhbər olmaq üstündə dava gedir. Bəzən elmi şuralarda bu, əməllibaşlı davaya çevrilir ki, 6-7, 8 nəfərə mən elmi rəhbər olacağam. Bilmirəm, bəlkə burada elə gizli mətləblər var ki, biz onlardan xəbərsizik. Amma yəqin bu da zaman-zaman araşdırılmalıdır ki, bu alimlər nə üçün elmi rəhbərlik uğrunda dava edir, çox sayda dissertanta və doktoranta elmi rəhbər olmaq istəyirlər. Bu da vacib məqamdır. Bunu araşdırıb üzə çıxarmaq lazımdır. Özü də bir çox dissertasiya, həm elmi rəhbərlik, həm də elmi müzakirələr və müdafiələr çox aşağı səviyyədə və keyfiyyətsiz olur"

*"Bir vəzifəli elmi rəhbərin 10, 15, hətta 20 nəfər dissertantı, doktorantı olur"*

İ.Abbasov qeyd edir ki, bu olduqca ağrılı bir məsələdir və bu neqativliyin aradan qaldırılması vacibdir.

***İradə SARIYEVA***

# Sabunçuda küçənin ortasında havaya atəş açaraq qaçmış şəxs Mingəçevirdə müqavimət göstərərkən məhv edilib

**Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin birgə məlumatına görə, bu il yanvarın 11-də Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Anar Ağayev paytaxtın Sabunçu rayonu ərazisində əhalinin sıx toplaşdığı ictimai yerdə üzərində qanunsuz gəzdirdiyi odlu silahdan xuliqanlıq zəminində havaya 3 dəfə atəş açaraq hadisə yerindən qaçıb.**



Faktla əlaqədar Cinayət Məcəlləsinin 221.3-cü (xuliqanlıq) və 228.1-ci (qanunsuz olaraq silah əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılaraq A.Ağayev barəsində axtarış elan olunub.

Fevralın 26-da onun Mingəçevir şəhərində gizləndiyi ünvan müəyyən edilib və saxlanaraq istintaqa cəlb edilməsi məqsədilə xüsusi əməliyyat tədbiri keçirilib. Polis əməkdaşlarının təslim olma barədə etdiyi xəbərdarlığa baxmayaraq, A.Ağayev silahlı müqavimət göstərməklə onların və ətrafdakı insanların həyat və sağlamlıqları üçün böyük təhlükə yaradıb. Əməliyyat qrupu tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada xidməti silah tətbiq edilməklə görülmüş cavab tədbiri ilə Anar Ağayev məhv edilib.

Meyitin üzərinə və yaşadığı evə keçirilmiş baxış zamanı 1 ədəd "PSM" markalı tapança, ona aid səsboğucu, 6 ədəd patron, 1 ədəd "RQD-5" əl qumbarası və 1 ədəd qaz tapançası aşkar olunaraq götürülüb.

Faktla bağlı Mingəçevir Şəhər Prokurorluğunda müvafiq araşdırmalar aparılır.

# Nəsimi rayonunda iki cinayətkar taksi sürücüsünü və aptekdə satıcını soydu və...

**Nəsimi Rayon Pois İdarəsinin əməkdaşları tərəfindən paytaxt ərazisində soyğunçuluqla məşğul olan şəxslər tutulub.**

Belə ki, paytaxt sakini Rahil Əliyev polisə şikayət edərək bildirib ki, idarə etdiyi "VAZ 21012" markalı avtomobillə taksi fəaliyyəti ilə məşğul olan zaman nəqliyyat vasitəsinə müştəri kimi əyləşən naməlum şəxs onu qorxudaraq 100 manat dəyərindəki "Samsung" markalı mobil telefonunu və 25 manat nağd pulunu əlindən alıb. Həyata keçirilən əməliyyat-axtarış tədbiri nəticəsində həmin hadisəni törətməkdə şübhəli bilinən Lənkəran şəhər sakini Elvin Əliyev saxlanıb. O, ifadəsində etdiyi cinayəti etiraf edib.

Nəsimi RPİ əməkdaşlarının həyata keçirdiyi digər bir əməliyyat nəticəsində Tbilisi prospekti 13 ünvanında yerləşən aptekin kassasından soyğunçuluq yolu ilə 2000 manat oğurlayan şəxs saxlanıb. Əməliyyat zamanı əvvəllər dəfələrlə məhkum olunmuş Sumqayıt şəhər sakini Vüsal Hüseynov tutularaq istintaqa təqdim edilib.

Qeyd edək ki, hadisə zamanı V.Hüseynov aptekə daxil olaraq satıcıdan əvvəlcə müxtəlif növ dərman vasitələri istəyib. Bundan sonra o, satıcının başının qarışıq olmasından istifadə edərək kassadakı pulu ələ keçirib. Araşdırma zamanı V.Hüseynov paytaxtın digər ərazilərində də eyni üsulla bir neçə aptekdən oğurluq etdiyi məlum olub.

Qeyd edilən faktlarla bağlı hər iki şəxs barəsində Nəsimi RPİ-nin İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Elvin Əliyev və Vüsal Hüseynovun əməllərindən zərər çəkən başqa vətəndaşlar varsa ərazi üzrə polis idarə, şöbə və bölmələrinə müraciət edə bilərlər.

№ 37 (4168) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

28 FEVRAL 2020-ci il

www.baki-xeber.com




## Arvadının hədiyyəsi ərini milyonçu etdi

**Amerikanın Virciniya ştatında kişi öz xanımından lotoreya bileti hədiyyə alıb və nəticədə milyonçu olub. "Milli.Az" xəbər verir ki, virciniyalı Daniel Şuman lotoreyada ilk dəfə udduğunu təsdiqləyib.**

Bildirib ki, bu xanımının ona verdiyi qeyri-adi hədiyyə nəticəsində mümkün olub. Xanımının D.Şumana hədiyyə etdiyi lotoreya bileti bir milyon dollar udub. Uduş anını xatırlayan Daniel belə deyir ki, uduş anı biz şokda idik: "Biz gözləmədiyimiz halda baş vardi. Biz belə gözləmirdik". Daniel udduğu pulu götürsə də, onu hara işlədəcəyi barədə hələlik qərarı yoxdu.

## Ən sürətli internet hansı ölkədədir - Rusiya ilə Tayvanın müqayisəsi...

**"WebsiteToolTester" şirkəti hesabat dərc edərək ən sürətli internetin olduğu dünya ölkələrinin siyahısını açıqlayıb. "İctnews.az" bildirir ki, reytinqdə birinci yeri Tayvan tutub.**

Sonrakı yerlərdə isə Sinqapur, La-Manş boğazında yerləşən Cersi adası, İsveç və Danimarka qərarlaşıb. Həmçinin ilk iyirmiliyə Yaponiya, Lüksemburq, Niderland, İsveçrə, Norveç, Andorra, İspaniya, Belçika, ABŞ, Latviya, Yeni Zelandiya, Estoniya, Honkonq, Macarıstan və Litva daxildir. 207 ölkə arasında 53-cü yeri tutan Rusiya Bolqarıstan, Madaqaskar, Ruminiya, Makao və Barbadosdan geri qalıb. Hesabata görə, Rusiyada beş giqabayt yaddaş tutumuna malik videonu yükləmək üçün orta hesabla 45 dəqiqə 51 saniyə tələb olunduğu halda reytinqin qalibi Tayvanda bu göstərici 8 dəqiqə 2 saniyə təşkil edir.

## Yerin növbəti peyki tapıldı

**2020 CD3 kiçik asteroidi müvəqqəti olaraq Yerin təbii peyki olub. "Axar.az" xəbər verir ki, bu barədə Smotsonov Astrofizika Rəsədxanasının Kiçik planetlər mərkəzi məlumat yayıb.**

"Orbitin inteqrasiyaları onu göstərir ki, bu obyekt müvəqqəti olaraq Yerə bağlanıb. Heç bir narahatlıq, Günəş radiasiyasının təzyiqi, heç bir süni obyektlə əlaqəsi yoxdur", - məlumatda qeyd olunub. Məlumata görə, obyektin ölçüsü 1-6 metr qiymətləndirilir. Obyekt Amur və Apollon asteroidlər qrupuna aiddir.

## Robot ilk dəfə mikrocərrahiyyə əməliyyatı keçirib

**Niderlandlı alimlər tərəfindən təqdim edilmiş robot ilk dəfə uğurlu mikrocərrahiyyə əməliyyatı keçirib. Tədqiqatın nəticələrinə əsasən məlum olub ki, avtomatlaşdırılmış prosedurlardan sonra xəstələr daha sürətli şəkildə sağalırlar.**

"İctnews.az" bildirir ki, Eyndhoven Texnologiya Universiteti və Maastrixt Universitetinin Tibb Mərkəzinin alimlərini birləşdirən Niderlandın "Microsure" startapı dünyada mikrocərrahiyyə üçün ilk klinik əlçatan cərrahi robot hazırlayıb. Cərrah tərəfindən idarə olunan robot əllərin hərəkətini dəqiq avtomatlaşdırılmış əməliyyatlara çevirir. "Yeni robot bizə miniatür limfa və qan damarları üzərində əməliyyat aparmağa imkan verir. Biz robotun köməyi ilə istənilən ölçülü damarlar üzərində əməliyyatlar keçirə bilərik" - plastik cərrah Şan Syu Şao deyib. Bu alət diametri 0.3-0.8 mm olan miniatür qan və limfa damarlarını birləşdirməyə imkan verir. Belə damarların birləşdirilməsinin çətin olduğuna görə hazırda yalnız az sayda cərrah supermikrocərrahiyyə əməliyyatı keçirmək qabiliyyətinə malikdir.



## Elan

Ələsgərov Ceyhun Mehman oğlunun adına kombayn SK5MEL dövlət nömrəli nişanlı Az 10-E-581 nömrəsi itdiyi üçün etibarsız sayılır.

Nəsimi rayonu, Bülbül prospekti, ev 40, mənzil 74-də yaşayan Rzaquliyeva Nailə Oqtay qızına aid olan əmlaka dair çıxarış itdiyi üçün etibarsız sayılır.

Abbasova Züleyxa İsrafil qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, 5057-68 məhəllə, ev 8, mənzil 45 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (seriya MH N181285) itdiyi üçün etibarsız sayılır.

Məmmədov Müslüm Aqşin oğluna Rabitə və Nəqliyyat Kolleci tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Cabbarova Anastasiya Qriqoryevnanın adına, Bakı şəhəri, Pirallahı qəsəbəsi, S.Vurğun küçəsi, döngə 5, ev 2, mənzil 1 ünvanının çıxarışı (kupça) itdiyi üçün etibarsız sayılır.

Səfərəliyev Telman Şövkət oğlunun adına, "Moskviç 401" və "Pobeda M20" avtomobillərinin nömrələri və texpasportları itdiyi üçün etibarsız sayılır.

Bakı şəhəri, Yasamal rayonu, 7-ci isa sallaqxana, ev 7, mənzil 11 ünvanının sahibi Səlimova Sitarə Hacıbala qızının adına bu ünvanda yerləşən qarajın sənədləri itdiyi üçün etibarsız sayılır (Səlimov Sulduz Mürşüd oğlu, №17363698, ASAN 3).





**Qoç** - Şərait yenilənmə, dəyişikliklər tələb edir. İtkilər və müvəqqəti çətinliklər olsa belə, ruhdan düşməyin. İzafi enerjidən qurtulmaq üçün çıxış yolu gərəkdir. Məşğul olduğunuz faydalı işin dəqiq və səlis nəticəsi olacaq.



**Buğa** - Əlaqələri gücləndirin, yaxın gələcəkdə işlərinizə veriləcək dəstəklə bağlı müzakirələr aparın. Fiziki aktivlik gərginlikdən qurtulmağınıza kömək edə bilər. Maliyyə məsələlərinə daha çox diqqət ayırın.



**Əkizlər** - Yaxın ətrafınızdakı insanlarla əlaqələrinizi təftiş edin. Yeni təmaslar qurun, əlaqələri bərpa edin. Hər şey dinamikdir. Gözləntilər planlarınızın reallaşdırılması ilə bağlı situasiyaya uyğun deyil.



**Xərçəng** - Səhər saatlarından etibarən aktiv olun, qətiyyətli mövqe tutun, müttəhərrik davranın. İşləri təxirə salmayın, borcları qaytarın, vədlərinizi yerinə yetirin. Yaxınlarınıza və qohumlarınıza yetərincə diqqət ayırın.



**Şir** - Gözləntilərinizin tam tərsinə olaraq xarici şərtlər əlverişli deyil. Günün ilk yarısında səfərə və ya ezamiyyətə, səyahətə və ya gəzintiyə yollanmayın. Ünsiyyət çevrənizi məhdudlaşdırın.



**Qız** - Əhvalınız gün ərzində dəfələrlə dəyişəcək. Situasiyanın azad axarına mane olmamağa çalışın. Müstəqil çalışa bilmədiyiniz vaxtlarda inandığınız insanların yardımlarından bəhrələnin.



**Tərəzi** - Əhvalınız bu gün əhəmiyyətli dərəcədə ətrafınızdakı insanların davranışı və yaşam arealınızla müəyyənləşir. Münaqişələrə rəvac verməyin, mübahisələri genişləndirməyin.



**Əqrəb** - İmpulsiv, emosional hərəkətlərlə ailədə və ya kollektivdə tarazlığı pozmayın. Yaşam arealınızı qaydaya salın. Hissləri nizamlayın ki, rahat nəfəs ala biləsiniz. Sağlam həyat tərzi ilə bağlı təşəbbüslərə ehtiyac var.



**Oxatan** - Günün aktiv keçirilməsi üçün yetərincə impulslar var. Təşkilatçılıq məharətinizi nümayiş etdirmək üçün müstəqil çalışın, kimdənsə asılı olmayın. Sonradan birgə fəaliyyətin müəyyən formatını seçə bilərsiniz.



**Oğlaq** - Maraqlarınızın təminatına yönəlmiş işi, ilk növbədə, tamamlayın. Yaxınlarınıza və sizə əziz insanlara qayğını unutmayın. Onların yardıma, mənəvi dəstəyə ehtiyacları var. Səhhətinizin qeydinə qalın.



**Dolça** - Qısqanc, hövsələsiz, dözümsüz olmayın. Tələsik qərar verməyin. Tərəfdaşla ümumi məsələlər varsa, onların çözümünə xüsusi diqqət yetirin. Səfər, səyahət, ekskursiya, mədəni istirahət üçün əlverişli gündür.



**Balıqlar** - Şəxsi münasibətlərdəki gərginlik həllini gözləyir. İşlərdə konstruktiv məcranın yaradılması üçün səy göstərin. Artıq sözlər deməyin. Şəxsi münasibətlərdə və işdə qayda yaradın.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## İt meşədən evə yeni doğulmuş ayı balası gətirdi



**ABŞ-ın Virciniya ştatında meşədə gəzintiyə çıxmış it evə gözlənilməz tapıntı ilə qayıdıb.**

"Oxu.az" xəbər verir ki, it evə 540 qram çəkisi olan yeni doğulmuş ayı balası gətirib. Ehtimal edilir ki, ayının anası ovçular tərəfindən vurulub və bala acından ölməyə məhkum idi. İtin sahibləri ayını vəhşi heyvanlar sığınacağına bağışlamağa qərara gəliblər. Bir müddət sığınacaqda qalan ayı balası artıq özünə yeni ailə tapıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*
*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.